RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 92 (9547) 5 may 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Qlobal əməkdaşlığın Bakı platforması

## VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bir daha dünyaya həmrəylik çağırışı edildi

Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda səslənən fikirlər də bunu bir daha təsdiqlədi. 110 ölkənin 700-dən artıq nümayəndəsi bu dəfə Bakıya "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda müzakirə aparmaq üçün toplaşmışdı.

Öncə onu deyək ki, bu beynəlxalq qlobal forum Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılıb. Artıq neçə illərdir ki, Bakıda dünyanın müxtəlif mədəniyyətlərə aid din xadimləri bir araya toplaşaraq bəşəriyyəti narahat edən mühüm məsələlərin müzakirəsini aparırlar. Eyni zamanda həm Azərbaycan, həm də regionda baş verən proseslərə öz münasibətlərini bildirirlər.

Tədbirin moderatoru, ABŞ-nin Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor Alpaslan Özerdemin fikirlərindən də bəlli oldu ki, bu gün hər kəs dünyada sərhədləri aşan, məfkurələri keçən dərin çağırışların və fürsətlərlə səciyyələnən qlobal durumun şahididir. Bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kiber təhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Dünyanın beyin mərkəzləri, müxtəlif mədəniyyətlərə aid din xadimləri, mütəfəkkirlər bir araya gələrək bəşəriyyəti gözlənən qlobal təhdidlərdən azad etmək üçün yollar axtarıb tapmalıdırlar. Bunun üçün isə ilk növbədə sülh və həmrəylik nümayiş etdirilməlidir: "Əlbəttə ki, biz münaqişələri həll etməli və sülhü qurmalıyıq. 2011-ci ildə başladıqdan sonra məhz "Bakı Prosesi" bu məqsədi vacib tutub".

Azərbaycan Prezidenti isə konkret olaraq dedi ki, forumda mədəniyyətlərarası dialoq, müxtəliflik, iqlim dəyişmələri, miqrasiya, sülh və təhlükəsizlik, postmünaqişə vəziyyəti, turizm, süni zəka haqqında müzakirələr aparılacaq. Dövlət başçısı əminliklə dedi ki, bu müzakirələr və o cümlədən forum zamanı irəli sürülən ideyalar bizə yanaşmaları formalaşdırmağa imkan verəcək, mədəniyyətlərarası dialoqu gücləndirəcək: "2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri, yeni qeyri-sabitlik məkanlarını və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın".

→ 4

## Xankəndi Şəhər Prokurorluğunun yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xankəndi Şəhər Prokurorluğu yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Xankəndi Şəhər Prokurorluğunun yaradılması ilə əlaqədar həmin qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi və digər maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2024-cü il*

## Prezident İlham Əliyevin COP29 tədbiri ilə bağlı dəvət məktubları BMT-dəki daimi nümayəndələrə çatdırılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29 tədbiri ilə bağlı dəvət məktubları BMT-dəki daimi nümayəndəliklərə çatdırılıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın BMT-dəki Daimi Nümayəndəliyindən bildirilib.**

Qeyd olunub ki, dövlət və hökumət başçılarına ünvanlanmış dəvət məktubları Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi tərəfindən El Salvador, Liviya, Mikroneziya, Yeni Zelandiya, Nikaraqua, Palau, Seneqal, Seyşel adaları, Suriya, Tuvalu, Vanuatu və Venesuelanın BMT-dəki daimi nümayəndəliklərinə təhvil verilib.

## Azərbaycanın təşəbbüsləri bəhrəsini verir

### Cənubi Qafqazda davamlı sülhə geniş üfüqlər açılıb

Vətən müharibəsindən sonra iki ölkə arasında sülh sazişinin imzalanmamasının birinci baiskarı məhz Fransa olub. Emmanuel Makronun davamlı siyasi təxribatlar törədərək üçtərəfli görüşlərə mane olması da buna bariz nümunədir. Hər kəs xatırlayır, ötən il Qranada görüşündə Azərbaycanın iştirak etməməsi də məkrli Makronun təxribatının növbəti təzahürü idi.

Bütün bunlara baxmayaraq, Bakı sülh gündəliyinə sadiq qaldı və bu istiqamətdə davamlı təşəbbüsləri, çevik diplomatik gedişləri ilə bölgə ilə bağlı mənfur planları olanları da, sözün əsl mənasında, tərk-silah etdi. Ermənistan da bir daha anladı ki, Bakının təklif etdiyi sülhdən başqa çıxış yolu yoxdur və bu, həm də onun dalan ölkə olmaqdan qurtuluşu deməkdir.

Beynəlxalq forumda Prezident İlham Əliyev də vurğuladı ki, otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər.

→ 5

## Qərb Gürcüstanı Ukraynaya çevirmək niyyətindədir

### Bu ölkə Azərbaycandan ruhlanaraq qəti mövqe nümayiş etdirir

**ABŞ-nin və Qərbin bəzi fondlar vasitəsilə müstəqil ölkələrdə dağıdıcı siyasət yürütdüyü hər kəs tərəfindən bilinən gerçəklikdir. Onlar öz sifarişlərini icra etdirmək üçün hədəfə götürdükləri ölkələrin mediasını, QHT-lərini ələ almaqla və müxtəlif yollarla maliyyələşdirməklə pərdə arxasından çirkin planlarını yerinə yetirməyə çalışırlar.**



Bu günlərdə Gürcüstanda yaşananlar da məhz bundan xəbər verir. Belə ki, qonşu ölkədə "Xarici təsir haqqında" qanun layihəsi ətrafında siyasi polemikalar, bəyanatlar, müxalifətin aksiyaları, toqquşmalar, həbslər yaşanır. Qanun layihəsi artıq ikinci oxunuşda qəbul edilib və 2 həftədən sonra bununla bağlı yekun səsvermənin keçirilməsi nəzərdə tutulur.

→ 6



## Azərbaycan COP29 çərçivəsində Şərqlə Qərb arasında körpü olacaq

Bu gün qlobal ətraf mühit problemi dünyanın qarşısında duran əsas vəzifədir. Ətraf mühitin çirklənməsindən dolayı yeni minillikdə ekoloji problemlər "yaşıl iqtisadiyyat"ın sürətli inkişafını tələb edir. İqlim dəyişikliyi nəticəsində yaranan fəsadlar göstərir ki, problemin həlli üçün bütün dünya birləşməlidir. Biomüxtəlifliyin itirilməsinə, torpaqların eroziyasına, meşələrin qanunsuz kəsilməsinə, havanın və çayların çirklənməsinə, tullantıların qeyri-rasional şəkildə idarə olunmasına və digər neqativ fəsadlara səbəb olan səhvləri birlikdə düzəltməyə çalışmalıdır. Bu səbəbdən də ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə qarşı davamlılığın artırılması istiqamətində əməkdaşlıq həyati vacib əhəmiyyət daşıyır. Başqa sözlə, dövlətlərarası həmrəylik və qarşılıqlı etimad bu gün hava, su kimi gərəklidir.

→ 7

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il fevralın 19-da Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 240** QƏRAR **Bakı şəhəri, 2 may 2024-cü il**

### "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 mart tarixli 14 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1810 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "15" rəqəmləri "14" rəqəmləri ilə əvəz edilsin.

2. "Kollegiyanın üzvləri" bölməsinin onuncu abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və on birinci abzas ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il fevralın 19-da Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 242** QƏRAR **Bakı şəhəri, 2 may 2024-cü il**

### "Elektrik gücü çatmadıqda sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısı"nın təsdiq edilməsi haqqında

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə"Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin 3-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Elektrik gücü çatmadıqda sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# İƏT Sammitində Ermənistan İslam irs nümunələrinin dağıdılmasına görə bir daha qınanılıb

**Mayın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 15-ci İslam Sammitində iştirak və çıxış edib.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, İƏT çərçivəsində birlik və əməkdaşlığın təşviqi istiqamətində uğurlu sədrlik təcrübəsi nümayiş etdir-




diyinə görə Səudiyyə Ərəbistanına təşəkkür edən nazir Ceyhun Bayramov İƏT sədrliyini təhvil alan Qambiyanı təbrik edərək, İslam həmrəyliyinin daha da gücləndirilməsi və irəlilədilməsi fəaliyyətində uğurlar arzulayıb.

Sammitin mövzusuna - "Daha yaxşı gələcək üçün birlik və əməkdaşlığ"a uyğun olaraq, ölkəmizin BMT və İƏT-in Nizamnamələri, habelə İslam dünyası üçün ortaq maraqlar əsasında mövcud çağırışlarla mübarizədə həmrəyliyi dəstəklədiyi diqqətə çatdırılıb.

Bu kimi çağırışlardan ən təhlükəlisi olan əsassız islamofobiya meyilləri, habelə müqəddəs "Qurani-Kərim"in yandırılma aktları ilə mübarizədə İslam dini və mədəniyyətinin düzgün təşviqinin əhəmiyyəti qeyd olunub.

Öz multikultural ənənə və təcrübəsindən irəli gələrək, ölkəmizin müxtəlif din və mədəniyyətlər arasında daha tolerant və dayanıqlı dünya quruculuğunu dəstəklədiyi bildirilib.

Keçmiş işğal dövründə ölkəmizin suverenliyi və ərazi bütövlüyünə münasibətdə İƏT-in davamlı və birmənalı mövqe göstərdiyini məmnunluqla xatırladan nazir Azərbaycanın da İƏT-in aktiv üzvlərindən biri kimi təşkilat çərçivəsində münaqişələrin sülh yolu ilə həlli səylərini daim dəstəklədiyini diqqətə çatdırıb.

Hazırda bütün İslam dünyasını dərindən narahat edən Fələstin məsələsi ilə bağlı ölkəmizin "iki dövlət" prinsipi əsasında həll yolunun tərəfdarı olduğu, habelə münaqişənin Fələstin xalqı üçün ağır humanitar nəticələrinin aradan qaldırılması üçün davamlı dəstək göstərdiyi qeyd edilib.

İƏT çərçivəsində müxtəlif, o cümlədən iqtisadi inkişaf, təhsil, səhiyyə, mədəniyyət kimi sahələrdə əməkdaşlığın məmnunluq doğurduğu, habelə birgə fəaliyyət üçün digər istiqamətlər üzrə də geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb. Xüsusilə ölkəmizin öz enerji portfelini genişləndirərək ənənəvi enerji mənbələrindən külək, Günəş, su kimi alternativ mənbələrə keçid istiqaməti tutduğu, habelə öz strateji mövqe və infrastruktur imkanlarını bağlantılar sahəsinə yönəltdiyi bir dövrdə İƏT dövlətləri ilə bu sektorlarda əməkdaşlığın inkişafında maraqlı olduğumuz bildirilib.

C.Bayramov postmünaqişə dövründə mövcud regional vəziyyət, imkanlar və çağırışlar, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, bu işlərə təhlükə törədən mina təhdidi, Azərbaycan-Ermənistan normallaşma gündəliyi üzrə son irəliləyişlər barədə ətraflı məlumat verib.

COP29-a sədrliyimizdən bəhs edən nazir qlobal iqlim dəyişikliyindən ən çox əziyyət çəkən regionlardan biri kimi İƏT bölgəsinin bu təhdidlə mübarizədə vahid mövqedən çıxış etməsinin və səylərin səfərbərliyinin əhəmiyyətini vurğulayıb.

Sonda Bancul Sammitinin yekunlarına dair qəbul olunmuş Yekun Kommunikedə ölkəmizin bütün ərazilərində öz suverenliyini bərpa etməsinin məmnunluqla qarşılandığı qeyd olunub, dəyişməz olaraq Azərbaycanın ərazi bütövlüyünə, habelə Azərbaycan və Ermənistan arasında bir-birinin ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınması əsasında normallaşma prosesinə dəstək ifadə olunub, bu istiqamətdə Ermənistana öhdəliklərinin yerinə yetirilməsinə dair çağırış edilib.

Kommunikedə həmçinin İƏT-in "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə Kontakt Qrupu"nun adının "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması üzrə Kontakt Qrup"a dəyişdirildiyi əksini tapıb, Ermənistan İslam irs nümunələrinin dağıdılmasına görə bir daha qınanılıb.

Keçmiş münaqişə dövründə indiki Ermənistan ərazilərindən qovulmuş azərbaycanlıların taleyinin narahatlıq doğurduğu, bu istiqamətdə onların ləyaqətli qayıdışına dəstək ifadə olunub.

2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatının 16-cı İslam Sammitinin Azərbaycanda keçirilməsini təsdiqləyən Kommunikedə həmçinin bu istiqamətdə Bakıda təşkil olunacaq sammitin həyata keçirilməsində əməkdaşlığa çağırış olunub.

Kommunike eyni zamanda "Bakı Prosesi" çərçivəsində təşkil olunmuş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini alqışlayıb, habelə BMT sistemində, xüsusilə Təhlükəsizlik Şurasının strukturunda coğrafi təmsilçiliyin daha ədalətli bölgüsünə çağırış edib.

# Azərbaycan xarici işlər naziri bir sıra görüşlər keçirib



Mayın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olunub, Şuşa Bəyannaməsinin əməkdaşlığımızın hərtərəfli inkişafı üçün yol xəritəsi rolunu oynadığı vurğulanıb.

Əlaqələrimizin davamlı, sabit və uzunmüddətli inkişafının təmin edilməsində Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya kimi çərçivə mexanizmlərinin əhəmiyyətli rol oynadığına dair həmfikirlik ifadə olunub.

Mövcud geosiyasi reallıqlar fonunda, Şərqlə Qərb arasında yükdaşımalarında Orta dəhlizin əhəmiyyətindən bəhs olunub.

Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı kimi çoxtərəfli platformalarda da özünü büruzə verdiyi, qardaş ölkələrimiz arasında koordinasiyalı fəaliyyətin və qarşılıqlı dəstəyin davam etdirilməsi və gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Ermənistan-Azərbaycan sülh prosesinin cari vəziyyəti, son inkişaflar, o cümlədən dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan-Ermənistan dövlət komissiyası çərçivəsində əldə edilmiş nəticələr barədə qarşı tərəfə məlumat verilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində Mərakeş Krallığının xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilər naziri Nasser Bourita ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı Azərbaycan və Mərakeş arasında ikitərəfli münasibətlərin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparılıb. İki ölkə arasında mövcud əməkdaşlıq gündəliyindən bəhs edən C.Bayramov Azərbaycan və Mərakeş arasında ticarət, enerji, təhsil, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığın geniş inkişaf potensialının mövcudluğunu qeyd edib.

O, həmçinin BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama Hərəkatı (QH) kimi çoxtərəfli platformalarda həyata keçirilən təmasların və bu platformalarda ölkələrin bir-birinin mövqeyinə göstərdiyi qarşılıqlı dəstəyin ikitərəfli münasibətlər üçün mühüm rol oynadığını qeyd edib. Görüş zamanı nazirlər iki ölkə arasında ümumvətəndaş pasportları sahibləri üçün viza rejiminin aradan qaldırılması barədə sazişi imzalayıblar.

* * *

Mayın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində Somali Federativ Respublikasının Baş nazirinin müavini Salah Ahmed Jama ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə tərəflər beynəlxalq təşkilatlar, xüsusilə BMT, Qoşulmama Hərəkatı və İƏT çərçivəsində əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə ediblər. Beynəlxalq təşkilatlar çərçivəsində namizədliklərə və təşəbbüslərə qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Görüş zamanı nazir Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələrinin ma-



raqlarının beynəlxalq platformalarda təbliği və Afrika ölkələri ilə əlaqələrinin inkişafı üçün səylərini əsirgəmədiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Tərəflər ikitərəfli iqtisadi-ticarət əməkdaşlığı, alternativ enerji, habelə təhsil-humanitar sahələrində tərəfdaşlığın inkişafı üçün geniş potensialın olduğunu bildiriblər. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ölkələri üçün müəyyən edilmiş təqaüd proqramında Somalidən tələbələrin iştirakının təqdirəlayiq olduğu bildirilib.

Bununla yanaşı, cari ildə ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı vurğulanıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

* * *

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Bancul Sammitində iştirakı çərçivəsində Qida Təhlükəsizliyi üzrə İslam Təşkilatının (IOFS) baş direktoru Berek Eren ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı Azərbaycan və IOFS arasında əməkdaşlıq imkanları, ölkəmizin beynəlxalq yardım proqramları müzakirə edilib.

C.Bayramov ölkəmizin İƏT çərçivəsində müxtəlif sahələr üzrə ixtisaslaşmış qurumlar ilə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Azərbaycanın donor dövlət kimi beynəlxalq yardım fəaliyyəti barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir qida təhlükəsizliyi kimi vacib bir çağırış üzrə qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Cari ildə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi fonunda, qida təhlükəsizliyi sahəsinin iqlim dəyişikliyi ilə bağlılığını nəzərə alaraq, COP29 çərçivəsində əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsinin faydalı ola biləcəyi diqqətə çatdırılıb.

Baş direktor Berek Eren öz növbəsində Azərbaycana İƏT çərçivəsində aktiv fəaliyyət və töhfələrinə görə təşəkkür edərək, IOFS-nin missiya və proqramlarından bəhs edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



* * *

Mayın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində Banqladeşin xarici işlər naziri Məhəmməd Həsən Mahmud ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı tərəflər, yüksəksəviyyəli qarşılıqlı səfərlərin, siyasi dialoqun və qurumlararası təmasların əməkdaşlığın inkişafına töhfə verdiyini, müasir şəraitdə mövcud təhlükələr və çağırışların aradan qaldırılması kontekstində ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinin önəmi vurğulanıb.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətinə diqqət çəkərək, tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən iqtisadi, humanitar və sosial sahələrdə daha da möhkəmlənəcəyinə əminlik ifadə ediblər. Bununla yanaşı, nəqliyyat, səhiyyə, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.

Nazir Ceyhun Bayramov bu il ölkəmizin evsahibliyi edəcəyi COP29-un yeni əməkdaşlıq sahələri üçün əlverişli imkan yaratdığını vurğulayıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar naziri Mamadu Tanqara ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı iki ölkə arasında diplomatik pasport sahibləri üçün viza tələbinin aradan qaldırılması barədə saziş nazirlər tərəfindən imzalanıb.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər müzakirə edilib.

* * *

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində Pakistanın Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-Pakistan tərəfdaşlıq əlaqələrinin dinamikasından məmnunluq ifadə olunub, dövlət və hökumət nümayəndələrinin qarşılıqlı yüksəksəviyyəli səfər və təmaslarının bu əlaqələrin inkişafına xüsusi təkan verdiyi bildirilib.

Azərbaycan-Pakistan strateji tərəfdaşlığı fonunda ikitərəfli iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün böyük potensialın mövcud olduğu vurğulanıb.

Azərbaycanın bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi çoxtərəfli təsisatlar çərçivəsində Pakistan ilə qarşılıqlı faydalı əməkdaşlıq və dəstəyə önəm verdiyi bildirilib.

Cari ildə ölkəmizin evsahibliyi edəcəyi COP29-un "yaşıl enerji" sahəsində Azərbaycan-Pakistan tərəfdaşlığı üçün əlavə imkanlar yaratdığı diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin üçüncü iclasında mühüm məsələlər müzakirə olunub




**Mayın 4-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin üçüncü iclası olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, sonuncu iclasdan ötən müddət ərzində COP29-a hazırlıq prosesi çərçivəsində görülmüş işlər və bu xüsusda COP29 üzrə Tədbirlər Planının icrası barədə məlumat verib.

Samir Nuriyev COP29-un loqosunun və şüarının müəyyən edildiyini diqqətə çatdırıb. Bildirib ki, COP29-un şüarı "Yaşıl dünya naminə həmrəy olaq!" kimi seçilib.

COP29-un və Liderlər Sammitinin Bakı Olimpiya Stadionunda keçiriləcəyini bildirən Təşkilat Komitəsinin sədri hazırda stadionda və ətrafında layihələndirmə, yerində hazırlıq işlərinin aparıldığını vurğulayıb. Samir Nuriyev tədbirdə iştirakla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf ölkələrin dövlət və hökumət başçılarına dəvət məktublarının göndərildiyini qeyd edib.

Samir Nuriyev dövlətimizin başçısının "COP29 və Azərbaycan üçün yaşıl baxış" adlı beynəlxalq forumda, Petersberq İqlim Dialoqunda və VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda COP29 və iqlim dəyişikliyi məsələləri ilə bağlı ölkəmizin mövqeyini əks etdirən əsas istiqamətlərə dair məlumat verdiyini bildirib.

Təşkilat Komitəsinin sədri ölkəmizin Dünya Bankının Vaşinqton yaz sessiyası və Petersberq İqlim Dialoqu da daxil olmaqla, iqlim dəyişmələri sahəsində təşkil edilən mühüm beynəlxalq tədbirlərdə fəal surətdə iştirak etdiyini bildirib və iyun ayında keçiriləcək Bonn iqlim dəyişikliyi konfransına ciddi hazırlıq işlərinin aparılmasının vacibliyini vurğulayıb.

Azərbaycanın COP29 zamanı prioritetləri haqqında danışan Samir Nuriyev COP29 Sədrliyinin Fəaliyyət gündəliyinin hazırlanmasının son mərhələdə olduğunu diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri COP29-un rəsmi internet səhifəsinin fəaliyyətə başladığını, yerli mediada COP29 ilə bağlı prosesin geniş işıqlandırıldığını, xarici media ilə fəal iş aparıldığını vurğulayaraq, nüfuzlu beynəlxalq nəşrlərdə COP29 komandasının müsahibələrinin dərc olunduğunu qeyd edib.

Samir Nuriyev həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar ölkədə görülmüş işlər barədə məlumat verib.

Sonra ekologiya və təbii sərvətlər naziri COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, ölkəmizin COP29-a sədrliyi ilə bağlı hazırlıq prosesi, COP29 komandasının xarici ölkələrə səfərləri və keçirilmiş görüşlər barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov COP29-a hazırlıq çərçivəsində təşkilati-logistika sahəsində görülən işlər barədə məlumat verib.

Səhiyyə naziri Teymur Musayev COP29 zamanı tibbi xidmətin təminatçısı qismində cəlb olunacaq dövlət və özəl tibb müəssisələrinin ilkin siyahısının müəyyən edildiyini, tibb müəssisələrinin və təcili tibbi yardım xidmətinin Çağrı Mərkəzinin fəaliyyətinə səhiyyə könüllülərinin də cəlb olunacağını bildirib.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva COP29-la bağlı parlament səviyyəsində aparılan işlər, o cümlədən Milli Məclislə Parlamentlərarası İttifaq arasındakı fəal əməkdaşlıq barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, COP29 Təşkilat Komitəsi Katibliyinin rəhbəri Həbib Mikayıllı Katibliyin fəaliyyəti, dövlət orqanlarının işinin əlaqələndirilməsi, COP29 prezidentinin komandasına institusional dəstəyin verilməsi və kommunikasiya məsələləri barədə çıxış edib.

Energetika nazirinin müavini, "COP29 Azərbaycan" üzrə baş icraçı direktor Elnur Soltanov Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri, eləcə də özəl sektor və gənclərlə aparılan iş barədə danışıb.

"SmartNation" platformasının təsisçisi Şəbnəm Məmmədova iqlim dəyişmələrinə qarşı fəaliyyət zamanı innovasiya və smart texnologiyaların rolu barədə çıxış edib.

Xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinə daxil olan təşəbbüslər, müxtəlif ölkələr və danışıqlar qrupları ilə aparılan müzakirələr və danışıqlar prosesinə hazırlıq barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev COP29-da iştirak edəcək şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında çıxış edib.

"EkoSfera" Sosial Ekoloji Mərkəzinin İdarə Heyətinin sədri Firuzə Sultanzadə COP29-da vətəndaş cəmiyyətinin rolundan və ekologiya ilə bağlı QHT-lərin tədbirdə iştirakının təmin olunmasından danışıb.

İclasın sonunda COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.



# SOCAR-ın Müşahidə Şurasının üzvləri yeni inşa olunan yaşayış kompleksi ilə tanış olublar

**Dünən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov, SOCAR-ın prezidenti Rövşən Nəcəf və Müşahidə Şurasının üzvləri şirkətin "Neftçi" mənzil-tikinti kooperativi tərəfindən inşa olunan yaşayış kompleksində görülən işlərlə tanış olublar.**



SOCAR-dan AZƏRTAC-a bildirilib ki, Bakının Səbail rayonunda Bibiheybət ərazisində yerləşən yaşayış kompleksində tikinti işlərinə 2020-ci ildə başlanılıb. Yaşayış kompleksində ümumilikdə 676 mənzildən ibarət səkkiz binanın inşası nəzərdə tutulub. 2023-cü ildə inşası tamamlanmış 17 mərtəbəli iki binada birotaqlı, ikiotaqlı və üçotaqlı olmaqla, ümumilikdə 252 mənzil var. Mənzillər tam təmir olunub, kommunal xidmətlərlə təchiz edilib. Kompleksdə digər altı binanın inşası davam edir.

Müşahidə Şurasının üzvləri və sakinlər arasında keçirilən görüşdə Prezident İlham Əliyev tərəfindən neft-qaz sənayesi işçilərinin sosial təminatı və mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının daim diqqət mərkəzində saxlanıldığı vurğulanıb. Neftçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyi qeyd edilib.

Ötən il mənzil növbəsində olan SOCAR əməkdaşları arasında inşası tamamlanmış binalardakı evlərin bölgüsü aparılıb. Yeni mənzil sahibləri arasında Birinci və İkinci Qarabağ müharibələrində iştirak etmiş SOCAR əməkdaşları da var.

# Azərbaycanın Moldova ilə insan hüquqları sahəsində təcrübə mübadiləsi məsələsi müzakirə edilib

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Moldova Respublikası parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Vitali Jakotla görüşüb.**



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı ombudsman qonağa insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib. O, təsisatın fəaliyyətində beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verildiyini bildirib, xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə, o cümlədən Moldova ombudsmanı ilə sıx əməkdaşlıq əlaqələrindən bəhs edib, hər iki ölkənin vətəndaşlarının hüquqlarının səmərəli müdafiəsi ilə bağlı birgə əməkdaşlıq fəaliyyətinin davam etdirildiyini deyib.

Müvəkkil İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın 30 illik işğalına son qoyulduğunu, azad edilmiş ərazilərdə bərpa-quruculuq layihələrinin, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı prosesinin həyata keçirildiyini qeyd edib. Lakin həmin ərazilərdə işğal dövründə basdırılmış minaların görülən işlərə maneə törətdiyi, eləcə də mülki şəxslərin həyat və sağlamlığına təhdid yaratdığı diqqətə çatdırılıb.

Ombudsman cari ildə ölkəmizin COP29-a evsahibliyi edəcəyini bildirib, bu istiqamətdə mümkün əməkdaşlıq perspektivləri müzakirə olunub. Moldova parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Vitali Jakot öz növbəsində səmimi görüşə görə təşəkkürünü bildirib.

Görüşdə həmçinin Azərbaycanla Moldova arasında insan hüquqları sahəsində təcrübə mübadiləsinin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə müzakirələr aparılıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan müxtəlif mədəniyyətlərin inkişafına töhfə verir

**"Ölkəmizin evsahibliyi etdiyi "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycan cəmiyyətinin tolerantlıq, qarşılıqlı hörmət, dostluq və tərəfdaşlıq kimi mühüm dəyərləri uzun əsrlərboyu qoruyub saxladığını sübut etdi. Bu forum Azərbaycanın müxtəlif mədəniyyətlərin inkişafına töhfə verməkdə maraqlı olduğunu bir daha göstərdi. Bununla da biz hər zaman olduğu kimi, yenə də nümayiş etdirdik ki, dünyada yalnız sülhün və dostluğun tərəfdarıyıq".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat bildirib ki, ölkəmizdə hər zaman müsbət mədəniyyətlərarası dialoqun olması, burada yaşayan müxtəlif etnik qrupların və dinlərin təmsilçilərinin vahid ailə şəklində yaşamaları Azərbaycanın mədəniyyətlərarası körpü rolu oynadığından xəbər verir: "Əsas məqsədlərdən biri də odur ki, Azərbaycan təkcə regionda deyil, dünyada sülhün və əmin-amanlığın hökm sürməsinə çalışır. Forumun açılış mərasimində Prezident İlham Əliyevin "Azərbaycan cəmiyyətində sülhün, sabitliyin, həmrəyliyin amillərindən biri məhz mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlıdır", - deyə diqqətə çatdırdığı bu fikirlər bunu bir daha təsdiq edir. Onu da xüsusi qeyd edək ki, Azərbaycanın bu tolerantlığı fitridir".

Prezidentin açılış mərasimindəki nitqinə də diqqət çəkən deputat qeyd edib ki, dövlət başçısının Azərbaycanı əsrlərboyu mədəniyyətlərin qovuşduğu məkan adlandırması təsadüfi deyil: "Müstəqilliyin ilk illərində yaşadığımız çətinliklər fonunda belə, xalqımız bu həmrəyliyini nümayiş etdirib. Yəni heç bir qüvvə bizim xislətimizə xas müsbət keyfiyyətlərdən uzaq düşməyimizə səbəb ola bilməyib. Həmçinin coğrafi mövqeyimiz - Şərq ilə Qərb arasında yerləşməyimiz də çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olmağımıza gətirib çıxarıb. Xalqımız da bu dəyərlərə sahib çıxaraq tolerantlığı və multikulturalizmi həyat tərzinə çevirib".

Cavanşir Paşazadə onu da söyləyib ki, bu cür mötəbər tədbirlərə evsahibliyi etmək dünyada Azərbaycana verilən qiymətin göstəricisidir: "Deməli, dövlətimizin, şəxsən Prezident İlham Əliyevin dünyada durmadan artan nüfuzu bizə olan etimadı da yüksək səviyyəyə çatdırıb. Təsadüfi deyil ki, Azərbaycanın 2024-cü ildə COP29-a evsahibliyi etməsi yekdil qərarla qəbul edilib".

Deputat yekunda vurğulayıb ki, 2020-ci ildə öz torpaqlarnı müharibə ilə geri qaytaran Azərbaycan ard-arda zəfərləri sayəsində öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib: "Postmünaqişə dövründə isə Azərbaycanın tək məqsədi sülhə töhfə verəcək addımlar atmaq və regionda əməkdaşlıq mühitini formalaşdırmaqdır. Ona görə də müharibədən dərhal sonra qalib tərəf olmağımıza baxmayaraq, Ermənistana sülh təklif etdik. İrəvan da başa düşməlidir ki, Cənubi Qafqazda sülh yalnız Azərbaycanla münasibətlər normallaşdıqdan sonra baş tuta bilər. Bu səbəbdən dövlətimizin sülhün bərpası istiqamətində atdığı addımlar adekvat cavabını almalıdır".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*



## Qlobal əməkdaşlığın Bakı platforması

### VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bir daha dünyaya həmrəylik çağırışı edildi

**Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan, həm də dünyada qlobal məsələlərin müzakirə olunduğu məkan kimi tanınır. Bunun da yeganə səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir.**

Hər il Azərbaycanda keçirilən qlobal forumlarda, konfranslarda dünyanı narahat edən problemlərin həlli yolları müzakirə edilir, mühüm qərarlar qəbul olunur. Yəni Azərbaycan təkliflərlə, təşəbbüslərlə çıxış edərək istənilən qlobal məsələnin həllinə öz töhfəsini verir. Bu da təbii ki, ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəlməsini şərtləndirən reallıqlardır.

İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan Cənubi Qafqazdakı hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar.

Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda səslənən fikirlər də bunu bir daha təsdiqlədi. 110 ölkənin 700-dən artıq nümayəndəsi bu dəfə Bakıya "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda müzakirə aparmaq üçün toplaşmışdı.

Öncə onu deyək ki, bu beynəlxalq qlobal forum Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılıb. Artıq neçə illərdir ki, Bakıda dünyanın müxtəlif mədəniyyətlərə aid din xadimləri bir araya toplaşaraq bəşəriyyəti narahat edən mühüm məsələlərin müzakirəsini aparırlar. Eyni zamanda həm Azərbaycan, həm də regionda baş verən proseslərə öz münasibətlərini bildirirlər.

Tədbirin moderatoru, ABŞ-nin Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor Alpaslan Özerdemin fikirlərindən də bəlli oldu ki, bu gün hər kəs dünyada sərhədləri aşan, məfkurələri keçən dərin çağırışların və fürsətlərlə səciyyələnən qlobal durumun şahididir. Bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kiber təhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Dünyanın beyin mərkəzləri, müxtəlif mədəniyyətlərə aid din xadimləri, mütəfəkkirlər bir araya gələrək bəşəriyyəti gözlənən qlobal təhdidlərdən azad etmək üçün yollar axtarıb tapmalıdırlar. Bunun üçün isə ilk növbədə sülh və həmrəylik nümayiş etdirilməlidir: "Əlbəttə ki, biz münaqişələri həll etməli və sülhü qurmalıyıq. 2011-ci ildə başladıqdan sonra məhz "Bakı Prosesi" bu məqsədi vacib tutub".

Azərbaycan Prezidenti isə konkret olaraq dedi ki, forumda mədəniyyətlərarası dialoq, müxtəliflik, iqlim dəyişmələri, miqrasiya, sülh və təhlükəsizlik, postmünaqişə vəziyyəti, turizm, süni zəka haqqında müzakirələr aparılacaq. Dövlət başçısı əminliklə dedi ki, bu müzakirələr və o cümlədən forum zamanı irəli sürülən ideyalar bizə yanaşmaları formalaşdırmağa imkan verəcək, mədəniyyətlərarası dialoqu gücləndirəcək: "2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri, yeni qeyri-sabitlik məkanlarını və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın".

Ümumiyyətlə, bu beynəlxalq tədbir islam dünyası ilə Qərb sivilizasiyası və eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rol oynayır. Forumun bu gün bəşəriyyəti düşündürən və narahat edən çox vacib bir məsələyə - sülhə və təhlükəsizliyə həsr edilməsi təsadüfi deyil. Çünki dünyada baş verən müharibələr, qarşıdurmalar, yeni müharibə ocaqlarının yaradılmasına göstərilən cəhdlər sülhsevər insanları, dövlətləri ciddi düşünməyə və tədbirlər görməyə vadar edir. Azərbaycan da hər zaman sülh istəyən dövlət kimi belə xoş təşəbbüslərlə çıxış edərək dünyanı birliyə, həmrəyliyə səsləyir. Məhz bu amillər Azərbaycana qələbələr, uğurlar qazandırır.

Əminliklə söyləmək olar ki, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın artan beynəlxalq nüfuzunun daha da yüksəlməsinə mühüm töhfə verəcək. Bakının beynəlxalq münasibətlər sisteminin aparıcı aktor kimi mövqelərinin möhkəmlənməsinə şərait yaradacaq.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu milli sərhədləri aşan aktual qlobal problemlər üzrə vacib müzakirələr aparmaq üçün unikal və dəyərli platforma kimi qiymətləndirilir.

Azərbaycan sözdə yox, əməlində sülhpərvər, tərəqqipərvər, fərqli dinlərə, təriqətlərə, millətlərə, fərqli siyasi baxışlara hörmətlə yanaşan ölkə olduğunu dəfələrlə sübut edib. Hər zaman dünyanın müxtəlif məkanlarında fərqli tribunalardan çıxış edən İlham Əliyev regionda sabitliyin, təhlükəsizliyin bərpa olunması üçün Azərbaycanın səylər göstərdiyini deyib və bütün bəşəriyyəti bu məsələyə diqqət göstərməyə çağırıb. Bunun ən bariz nümunəsi kimi, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Cənubi Qafqazda sülh naminə atdığı addımları göstərmək olar.

Bir sözlə, Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə başlanmış, aparıcı beynəlxalq təşkilatların dəstəklədiyi "Bakı Prosesi" 250-dən artıq tədbirdə 180 ölkədən olan 10 mindən artıq iştirakçını salamlamış, bölgədə yeni mədəniyyətlərarası təşəbbüsləri ilhamlandırmışdı. Əsas məqsəd dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Dünyanın çalxalanması fonunda ölkəmizdə sabitliyin olmasının xüsusi önəmi var

**"Dünya tamamilə çalxalanır, müharibələr, terror təhlükələri, təhdidlər baş alıb gedir. Təbii olaraq qarşıdurmalar dövlətlərdə sabitliyə təsir göstərir, hətta bir çox ölkələr müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalıb".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Deputat bildirib ki, nəzərdən keçirəndə bu dövlətlərin bir çoxunun liderlərinin və siyasi hakimiyyətlərin yarıtmaz siyasətini, hadisələri qabaqlamaq və onların preventiv üsullarla qarşısını almaq məsələlərində geridə qalmalarını görmək olar. Azərbaycan isə bu dəyişən siyasi arxitekturanın fonunda öz sabitliyini əzmlə qoruyub saxlayır və durmadan inkişaf edir. Təbii ki, bu əmin-amanlıq bizim sərvətimizdir. Burada öncə ölkə rəhbərinin zəkası, hadisələri düzgün analiz etməsi, qarşısının alınması üçün təcili təxirəsalınmaz işlərin görülməsini təmin etməsi, doğru çalışan komanda və xalqın birliyi durur.

Deputat qeyd edib ki, indiyədək Azərbaycanın bir çox beynəlxalq tədbirlərə evsahibliyi etməsi və onları uğurla həyata keçirməsi ölkəmizin həm də bu sahədə yüksək bacarığından, təcrübəsindən xəbər verir. "Artıq qazandığımız təcrübə bizə beynəlxalq tədbirlərin keçirilməsinə etimad göstərildiyini də şərtləndirir. Bu il noyabrda baş tutacaq COP29 konfransı isə indiyədək keçirilən qlobal toplantıların ən böyüyüdür. Ölkəyə gələcək 100 minə yaxın qonağın iki həftə ərzində Azərbaycanda olması, bunun üçün vacib infrastrukturun qurulması, təşkilati işlər və dünyanın diqqətinin ölkəmizdə olması məsuliyyətimizi daha da artırır. Həmişə olduğu kimi, ölkəmiz bu sınaqdan da üzüağ, alnıaçıq çıxacaq".

V.İsgəndərov deyib ki, bu gün Rusiya-Ukrayna müharibəsi, İran-İsrail münasibətləri, Gürcüstanda yaranan iğtişaşlar və digər ölkələrdə baş verən hadisələr mütləq şəkildə ölkəmizdəki stabilliyin nə qədər önəmli olduğunu göstərir.

Deputat deyir ki, böyük tədbirlərə uğurlu evsahibliyi etmək ölkəmizin tanıdılmasında böyük rol oynayır: "Dünyaya müasir, qürurlu zəfər çalmış Azərbaycan təqdim edirik. Bu təqdimat dünyaya Azərbaycanın tolerant, multikultural dəyərlərini, mədəniyyətini, mətbəxini, musiqisini, xalqımızın zənginliyini ən yüksək səviyyədə göstərir. Bu da dünyada güclü dövlətlər sırasında olmağımızda, söz sahibinə çevrilməyimizdə əhəmiyyətli rol oynayır. Dünyada baş verən siyasi, sosial, iqtisadi kataklizmlər içərisində bu sabitliyi sərvət kimi qoruyub saxlamalıyıq. İnkişaf etdikcə dostlarımızın sayını artırsaq da, Azərbaycanın uğurlarını gözü götürməyənlərin də olduğunu unutmamalıyıq. Bunun üçün hər birimiz ayıq-sayıqlığımızı itirməməli, qələbələrimizin bizə verdiyi qüruru daim yaşatmaq üçün ölkəmizin hərtərəfli inkişafında səfərbər olmalıyıq", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Bakı Prosesi" bir daha göstərdi ki, Azərbaycan dünya üçün tolerantlıq nümunəsidir

**Bu günlər dünyanın gözü yenə də Azərbaycana dikildi. Ölkəmizdə 1-3 may tarixlərində "Bakı Prosesi" çərçivəsində VI Dünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Artıq altıncı dəfə ölkəmizdə keçirilən və dünyanın böyük diqqətlə izlədiyi "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın həm dünyada artan siyasi nüfuzundan, həm də iqtisadi gücü ilə yanaşı, ölkəmizin ümumbəşəri dəyərlərə nə qədər sadiq qalmasından, ona hörmətlə yanaşılmasından xəbər verirdi.**

Forumda 110 ölkədən 700 nümayəndənin, BMT-nin və digər mötəbər təşkilatların yüksəkvəzifəli təmsilçilərinin iştirak etməsi dünyanın belə bir mötəbər tədbirə ehtiyacının olduğunu göstərirdi.

Hazırda dünyanın bir çox yerlərində qanlı münaqişələrin olduğu, bəzi qüvvələrin mədəniyyətlər və dinlər arasında nifaq salmağa çalışdığı, çoxtərəflilik konsepsiyasının az qala unudulduğu bir zamanda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bütün dinlərin və mədəniyyətlərin bir araya gətirilməsi, onların dialoqlarının təşkili və bəşəriyyəti narahat edən ağrılı mövzuların həlli üzrə ən optimal mexanizmlərin müzakirəsi forumun tarixi və siyasi əhəmiyyətinin nə qədər böyük olduğunu göstərdi. Buna görə də bütün dünyanın diqqəti Bakıda keçirilən foruma yönəlmişdi.

Yaşadığımız bugünkü mürəkkəb tarixi və siyasi şəraitdə, bir çox ümumbəşəri dəyərlərin zədələnməyə başladığı bir vaxtda belə mühüm missiyanın öhdəsindən gəlmək qüdrətində olan ölkələrin dünyada sayı çox deyil. Heç bir tərəddüd etmədən, demək olar ki, Azərbaycan özünün şərəfli keçmişi və bu günü, əldə etdiyi uğurları və dünyada qazandığı böyük siyasi nüfuzu ilə qüdrətli ölkələrdən biridir.

Forumda Azərbaycan dünyaya yeni sülh mesajları verdi, sülhün və sabitliyin etibarlı şəkildə qorunması üçün multikultural dəyərlərin yaşamasının, dinlər və xalqlar, xüsusilə də münaqişə tərəfləri arasında dialoqun və anlaşmanın gücləndirilməsinin yeganə yol olduğunu bəyan etdi. Forumda uzun illər işğala, ədalətsizliyə məruz qalmasına baxmayaraq, Azərbaycanın 2020-ci ildə ermənilərin təxribatı nəticəsində başlamış Vətən müharibəsində qazandığı qələbədən sonra Ermənistana sülh təklif etməsi dünyada rast gəlinən nadir hadisələrdən biri kimi dəyərləndirildi. Bu, bir daha göstərdi ki, ölkəmiz həmişə sülh tərəfdarıdır.

Forumda diqqəti cəlb edən məqamlardan biri də hazırda qanlı münaqişədə olan Rusiya və Ukrayna, İsrail və Fələstin nümayəndələrinin Bakıda bir araya gətirilməsi və gələcək sülh formulunun onların iştirakı ilə müzakirə edilməsi oldu. Bu fakt bir daha göstərdi ki, həmin ölkələrdə nə qədər müharibə, münaqişə olsa da, sülhə, əmin-amanlığa, mədəniyyətlərarası, dinlərarası dialoqa həmişə ehtiyac var. Bütün bunlar "Bakı Prosesi"nin qlobal sülhə və təhlükəsizliyə ciddi töhfələr verəcəyinə olan ümidləri daha da artırdı.

Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası xeyli genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı qatılıb. Eyni zamanda forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Prezident İlham Əliyev çıxışında Azərbaycan cəmiyyəti üçün multikulturalizmin həyat tərzi olduğunu iştirakçıların diqqətinə çatdıraraq demişdir: "Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlı olmasıdır. Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlərboyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda - toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik. Əslində, bütün bu hadisələr bizim sərhədlərimizə çox yaxın bir məsafədə baş verir və həmçinin əvvəllər bir neçə il ərzində Azərbaycan daxilində də olub. Bu, elə bir məsələdir ki, biz onları dostlarımızla bölüşmək istərdik. Həmçinin öz əminliyimizi nümayiş etdiririk ki, biz bu yolda addımlarımızı davam etdirəcəyik".

Dövlət başçımız forumda dünyada sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid edən yeni münaqişələrin alovlanmasını, yeni müstəmləkə və məcburi assimilyasiya tendensiyalarının artmasına toxunaraq dünya ölkələrinin bu təhlükələrə səssiz qalmamasının vacibliyini bildirib və bütün bu mənfi trendlərin qarşısının alınmasında bəşəriyyəti həmrəy olmağa çağırıb.

Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ölkəmiz üçün böyük tarixi hadisədir. Beynəlxalq təşkilatlar və dövlətlər bir daha gördülər ki, Azərbaycan dünya üçün əsl tolerantlıq nümunəsi olan ölkədir. Burada tarixboyu fərqli milli, dini mənsubiyyəti olan icmalar, xalqlar qarşılıqlı əməkdaşlıq və mehriban şəraitdə yaşamış və bu gün də yaşayırlar. Forum müxtəlif xalqların bir-birilərinin mədəniyyətlərinə daha yaxından bələd olmaları baxımından da çox dəyərli oldu. Qoy bütün dünya Azərbaycanın tolerantlığından nümunə götürsün, forumda səslənən sülh çağırışlarına əməli işləri ilə cavab versin.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycanın təşəbbüsləri bəhrəsini verir

### Cənubi Qafqazda davamlı sülhə geniş üfüqlər açılıb

**"Azərbaycan sülhü müharibə vasitəsilə təmin etdi... Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik. Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı. İndi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır".**



Mayın 1-də Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycanın Vətən müharibəsində qazandığı qələbə və ardınca suverenliyini tam təmin etməsi, ümumilikdə Cənubi Qafqazda davamlı sülhə də geniş üfüqlər açıb.

"Dəmir yuruq" 28 il idi ki, danışıqlar yolu ilə çətin düyünə düşmüş münaqişəni bir həmləsi ilə çözdü. Tarixə, beynəlxalq hüquqa, haqqa dayanan bu zəfəri ilə həm də illərdir dünyada davam edən bu tip münaqişələrin həlli üçün mükəmməl nümunə ortaya qoydu. Sübut etdi ki, bəzən danışıqlar yolu ilə həll edilə bilinməyən problemləri güc yolu ilə yerinə yetirmək mühüm nəticələrə, normallaşmaya, sülhə gətirib çıxarır.

#### Vasitəçiyə ehtiyac yoxdur

Elə bu ilin ilk dörd ayı ərzində Ermənistan ilə Azərbaycan arasında sülh istiqamətində atılan vacib addımlar buna bariz örnəklərdir.

Vasitəçilərə ehtiyac görmədən iki ölkə dialoqlara başlayıb, razılaşmalar əldə edib. Fevralın 17-də Almaniyada Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanın görüşü zamanı sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələr aparılıb. Ardınca fevralın 28-də Berlində Ermənistan ilə Azərbaycan arasında sülh sazişi layihəsini müzakirə etmək üçün iki ölkənin xarici işlər nazirləri arasında ikitərəfli görüş keçirilib. Qarşıda isə XİN başçılarının Qazaxıstanda görüşməsi planlaşdırılır.

Birbaşa danışıqların aparılması sayəsində sülh sazişinin imzalanması ilə bağlı əyani müstəvidə də mühüm nəticələrə nail olunub. Belə ki, artıq sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə start verilib, sərhəd dirəklərinin quraşdırılmasına başlanılıb. Razılaşmaya əsasən, Qazax rayonunun işğal altında olan kəndləri - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri azad edilir.

Qeyri-anklav kəndlərin qeyd-şərtsiz qaytarılması məsələsini Prezident İlham Əliyev hələ 2020-ci ildə qaldırmış, ötən müddətdə mövzu daim gündəlikdə saxlanılmışdı. Əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

Azərbaycanın 4 kəndinin qaytarılması ilə bağlı iki ölkə arasında əldə olunan razılaşmadan dərhal sonra beynəlxalq ictimaiyyət tərəfindən bu addımı alqışlayan və bunun sülh prosesində mühüm addım kimi dəyərləndirildiyi əks olunan açıqlamalar gəldi.

"İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb", - deyə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində dövlət başçısı da vurğuladı ki, bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil.

#### Bakının təşəbbüsü ilə...

Təəssüf ki, Azərbaycan ərazilərinin 20 faizinin işğal altında olması, həmin dövrdə Ermənistan tərəfindən talan edilməsi, viran qoyulması, xalqımızın etnik təmizləməyə, soyqırımlarına məruz qalması, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün məhrumiyyətlərə düçar olması 1990-cı illərin əvvəllərindən ta 2020-ci il - Vətən müharibəsinə qədər beynəlxalq ictimaiyyəti bir dəfə də olsun narahat etməyib.

Vasitəçi adı altında prosesdə iştirak edən ölkələr ikili standartlar nümayiş etdirərək Ermənistanın işğal siyasətini dəstəkləyib, məsələnin İrəvanın xeyrinə sonsuzadək dondurulmasına çalışıb. Bu mənfur planın həyata keçirilməsində neokolonialist siyasət həyata keçirən Fransanın xüsusi səyləri olub.

Ötən müddətdə beynəlxalq ictimaiyyət tərəfindən BMT TŞ-nin qəbul etdiyi 4 qətnamənin yerinə yetirilməsi ilə bağlı hansısa təşəbbüs göstərilməyib. Azərbaycanın torpaqlarını güc yolu ilə azad etməsindən, suverenliyini bərpa etməsindən sonra ölkəmizə qarşı qarayaxma kampaniyasına start verən, bədnam qətnamələr qəbul edən Avropa Parlamenti kimi riyakar beynəlxalq qurumlar Ermənistana işğalçılıq siyasəti ilə bağlı hansısa sanksiyaların tətbiqindən, qətnamələrin qəbulundan dəm vurmayıb.

Ancaq Azərbaycanın qazandığı qələbələr və ərazisində separatizmin kökünü kəsməsi sayəsində Cənubi Qafqazda yeni reallıqlar yaranıb. Bununla bölgədə münaqişələrdən uzaq, təhlükəsiz yaşam vəd edən sülh üçün münbit tarixi şərait formalaşıb. Postmünaqişə dövründə iki ölkə arasında sülhün əldə olunması üçün fəal iş həyata keçirən Bakı İrəvana təkmil sülh modeli təklif edib.

#### Ermənistan da anlayır ki, başqa yol yoxdur

Başda Fransa Prezidenti Emmanuel Makron hökuməti olmaqla bəzi riyakar xarici qüvvələr bölgədə ayırıcı xətlər yaratmaq üçün ötən dövrdə Ermənistana siyasi, hərbi dəstək verərək müharibəyə qızışdırır və İrəvanı sülh prosesindən uzaqlaşdırırdı. Faktdır ki, Vətən müharibəsindən sonra iki ölkə arasında sülh sazişinin imzalanmamasının birinci baiskarı məhz Fransa olub. Emmanuel Makronun davamlı siyasi təxribatlar törədərək üçtərəfli görüşlərə mane olması da buna bariz nümunədir. Hər kəs xatırlayır, ötən il Qranada görüşündə Azərbaycanın iştirak etməməsi də məkrli Makronun təxribatının növbəti təzahürü idi.

Bütün bunlara baxmayaraq, Bakı sülh gündəliyinə sadiq qaldı və bu istiqamətdə davamlı təşəbbüsləri, çevik diplomatik gedişləri ilə bölgə ilə bağlı mənfur planları olanları da, sözün əsl mənasında, tərk-silah etdi. Ermənistan da bir daha anladı ki, Bakının təklif etdiyi sülhdən başqa çıxış yolu yoxdur və bu, həm də onun dalan ölkə olmaqdan qurtuluşu deməkdir.

Beynəlxalq forumda Prezident İlham Əliyev də vurğuladı ki, otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Regionun gündəliyi Azərbaycan tərəfindən müəyyənləşdirilir

### Sülhə gedən addımlardan ən vacibi delimitasiya və demarkasiya prosesinin tamamlanmasıdır

**"Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı ilkin addımların atılması regionda dayanıqlı sülhə nail olunmasının uzun vaxt almayacağına işarədir. Nəzərə almaq lazımdır ki, 30 il müharibə vəziyyətində yaşadığımız Ermənistanla bir neçə görüşdən sonra sərhədlərin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri komissiyalarının ciddi nəticələr əldə etməsi mühüm əhəmiyyətə malikdir. Razılaşmadan çox qısa müddət sonra Qazaxın 4 kəndində sərhəd dirəklərinin quraşdırılması yaxın gələcəkdə iki ölkə arasında etimad mühitinin formalaşacağı və Cənubi Qafqazda sülhün bərqərar olacağı barədə nikbin proqnozlar verir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva söyləyib. Deputat bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsindən dərhal sonra sülhyaratma prosesinə başlayıb və bu istiqamətdə lazım olan bütün addımları atıb: "Sülh müqaviləsinin imzalanması üçün layihə də Azərbaycan tərəfindən hazırlanıb və Ermənistana təqdim edilib. Mədəniyyətlərarası Dialoq Forumunda Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan sülhü vasitəçisiz də bərqərar edə bilər. Bu prosesə Azərbaycanda və regionda iqtisadi, siyasi, biznes və maliyyə maraqları olan tərəflərin qoşulmasına imkan verilməyəcək. Təkbaşına müharibə aparıb qalib gəldiyimiz kimi, regionda və iki ölkə arasında sülhün bərqərar olunması üçün lazım olan addımları da vasitəçilərsiz atacağıq. Çünki görünən odur ki, vasitəçilər bu prosesi daha da alovlandırmağa, münaqişəni körükləməyə çalışırlar. Məhz bunun nəticəsidir ki, biz ikili standartlarla, ölkəmizə qarşı sərgilənən riyakar davranışlarla üz-üzəyik".

Jalə Əliyeva deyib ki, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi birmənalı olaraq vacib məsələdir. Bu, strateji təhlükəsizlik, xalqların rahat və əmin-amanlıq şəraitində yaşaması, eləcə də tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyətə malikdir. Ona görə də məsələnin qısa müddətdə öz müsbət həllini tapması Azərbaycanın maraqlarındadır.

"Azərbaycanla Ermənistan sərhədlərinin müəyyənləşdirilməsi tək Bakı ilə İrəvanın deyil, regionun digər ölkələrinin də maraqları çərçivəsində qiymətləndirilməlidir. Cənubi Qafqaz regionu ilə birbaşa və ya dolayısı bağlantısı olan bütün tərəflər anlamalıdırlar ki, sülhə gedən addımlardan biri də məhz delimitasiya və demarkasiya prosesinin tamamlanmasıdır. Ona görə də Ermənistanı bu məsələdə konstruktiv mövqe sərgiləməyə dəvət etməlidirlər", - deyə müsahibimiz əlavə edib.

Deputat yekunda regionda sülhün bərpa olunmasında maraqlı olmayan qlobal subyektlər barədə də fikir bildirib. Deyib ki, Azərbaycan və Ermənistan arasında müvafiq razılaşmanın imzalanmasından və sərhəd dirəklərinin quraşdırılmasından sonra həmin qüvvələrin səssizliyə qapılmasının səbəbləri məlumdur. Artıq beynəlxalq ictimaiyyət regionun gündəliyinin Azərbaycan tərəfindən diktə olunduğunu qəbul edir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Beynəlxalq təşkilatlar delimitasiya və demarkasiya prosesini dəyərləndirirlər

**Azərbaycanın İkinci Qarabağ müharibəsində Ermənistan üzərində qazandığı tarixi qələbə ölkəmizin güclü, qüdrətli orduya sahib olduğunu bütün dünyaya göstərdi. Bu güc, bu qüdrət qarşısında duruş gətirə bilməyən Ermənistan 30 ilə yaxın işğalda saxladığı torpaqlardan geri çəkilməyə məcbur oldu. 2020-ci ilin sentyabr-noyabr aylarında düşmən üzərində qazanılan qələbə regionda bir çox reallıqları dəyişdi. Bu dəyişikliyin nəticəsi olaraq artıq Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya işləri aparılır.**







Əslində, Azərbaycan və Ermənistanda yaradılmış sərhəd delimitasiyası üzrə Komissiyanın ilk görüşü 2022-ci ilin mayında keçirilmişdi. Ermənistan tərəfi əvvəlki ənənəsinə sadiq qalaraq bu mühüm prosesi ləngitmək üçün müxtəlif bəhanələr gətirərək görüşdən boyun qaçırırdı. Amma bütün cəhdləri uğursuzluğa düçar olandan sonra Azərbaycanın tələblərini yerinə yetirməkdən başqa yolu qalmadı. Delimitasiya və demarkasiya prosesinə başlamaq üçün ilk müsbət irəliləyiş 2024-cü il aprelin 19-da keçirilən görüşdə əldə olundu. Həmin gün Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirildi. Delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin keçmiş Sovet İttifaqı dövründə mövcud olan hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırdılar.

Dörd kəndin təhvil verilməsi sərhədlərin dəqiqləşdirilməsi məsələsində atılan çox müsbət addımdır. Azərbaycan ilə Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında ilk sərhəd dirəkləri quraşdırılıb. Xatırladaq ki, delimitasiya xəritədə iki dövlət arasında sərhədlərin müəyyən edilməsi prosesinə aiddir, demarkasiya isə yerdəki sərhədlərin fiziki olaraq qeyd olunmasını özündə ehtiva edir.

Danışıqların Azərbaycan və Ermənistan ərazilərində aparılması tərəflər arasında münasibətlərin daha da yaxşılaşmasına, qarşılıqlı etimad mühitinin formalaşmasına müsbət təsir edib. Hadisələrin hazırkı gedişi pozitiv düşünməyə imkan versə də, Ermənistan tərəfdə bəzi narahatlıqların olduğunu görürük. Dörd kəndin qaytarılması ilə bağlı razılaşmadan sonra Ermənistanın daxilində buna qarşı revanşistlərin etirazları başlayıb. Xarici ölkələrin müdaxiləsi, dini institutların etiraz dalğasına rəhbərlik etmək cəhdləri və başqa amillər göstərir ki, rəsmi İrəvan başqa güclər tərəfindən idarə olunur.

Azərbaycan və Ermənistan sərhədində delimitasiya və demarkasiya prosesində irəliləyişlərin müşahidə edilməsi müsbət haldır. Bu, ərazi mübahisələrinin həlli üçün əlverişli zəmin yaradır, həmçinin Cənubi Qafqaz regionunda sülh və sabitliyin yaranmasına təkan verir.

Azərbaycan Prezidenti İlham Əliyev VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxışı zamanı Azərbaycan-Ermənistan arasında aparılan delimitasiya və demakrasiya işlərindən bəhs edərək demişdir: "Ötən ilin sentyabr ayında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa edəndən sonra Ermənistanın dırnaqarası qarantorları tərəfindən siyasi hücumlara məruz qaldıq. Buna baxmayaraq, biz yenə sülh təklif etdik. İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər".

Bəzi beynəlxalq təşkilatlar və ölkələr Azərbaycan və Ermənistan arasında aparılan delimitasiya və demarkasiya prosesini yüksək dəyərləndirirlər. Avropa İttifaqının Ermənistandakı nümayəndə heyətinin rəhbəri Vasilis Maraqos proseslə bağlı yerli mətbuata açıqlamasında deyib: "Ermənistan və Azərbaycan 1991-ci ildə Almatı Bəyannaməsini imzalayıb. Ona əsasən 11 sovet respublikası onların inzibati sərhədlərinin həm də beynəlxalq sərhədləri ola biləcəyini bəyan edib. Bu öhdəlik 2022-ci ildə Praqada baş nazir Paşinyan və Prezident Əliyev tərəfindən təsdiqlənib. Bu, həm də bu ölkələrin hər birinin Aİ tərəfindən tanınması üçün əsasdır. İnzibati sərhəd heç vaxt beynəlxalq sərhəd olmayıb, ona görə də onun düzgün demarkasiyası və delimitasiyası lazımdır, lakin bizim üçün əsas hər iki ölkənin imzaladığı Almatı Bəyannaməsidir."

İordaniya Haşimilər Krallığının Xarici İşlər və Mühacir Məsələləri Nazirliyi Azərbaycan və Ermənistan arasında dörd kəndlə bağlı əldə olunan razılaşmaya və iki ölkə arasında davam edən demarkasiya səylərinə dəstəyini bildirib. Bu barədə nazirliyin sözçüsü Sufian Qudah bəyan edib. O, İordaniyanın iki ölkə arasında sabitlik və təhlükəsizliyin gücləndirilməsinə xidmət edən bu təşəbbüsləri dəstəklədiyini bildirib

Bu gün Azərbaycan-Ermənistan sərhədində aparılan delimitasiya və demarkasiya işləri 44 günlük Vətən müharibəsində qazanılmış qələbənin nəticəsidir. İki ölkə arasında basdırılan sərhəd dirəkləri düşmən üçün gözdağı, dostlarımız üçün iftixar və qürur xəttidir. Bu, sərhəd dirəkləri həm də sülhə, əmin-amanlığa aparan etibarlı yoldur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Bakı Prosesi" özünü qlobal platforma kimi tanıtdı"

**"Bakı Prosesi" özünü 100-dən çox ölkənin təmsilçilərini açıq, hörmətə əsaslanan, dinc və konstruktiv dialoq vasitəsilə birləşdirən qlobal platforma kimi tanıtdı. Bu fikirləri AZƏRTAC-a "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Dövlət Dumasının deputatı Dmitri Savelyev söyləyib. O qeyd edib ki, bu gün, dünyanın qlobal təhdidlərlə qarşılaşdığı bir vaxtda xalqlar arasında səmərəli mədəniyyətlərarası, sivilizasiyalararası dialoqa kömək etməyə yönələn təşəbbüslər çox mühümdür.**



"Bakı Prosesi" Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən hələ 2008-ci ildə irəli sürülən məhz belə əhəmiyyətli təşəbbüsdür. Hamının etiraf etdiyi kimi, Azərbaycanda mədəniyyətlərarası qarşılıqlı əlaqə təcrübəsi çox pozitivdir, ölkə rəhbərliyinin mədəniyyət sahəsində təşəbbüsləri isə müstəsna dərəcədə proqressivdir. Bu, Azərbaycanı dünyanın mədəni proseslərinin mühüm mərkəzinə çevirir. Əlbəttə, Rusiya beynəlxalq ziddiyyətləri aradan qaldırmaqdan ötrü səylərin birləşdirilməsi üzrə Azərbaycanın təşəbbüslərini tam dəstəkləyir. Xüsusən bu forumda dünyanın aktual problemlərinin həlli üçün yeni yanaşmaların və ideyaların yaranmasına öz töhfəsini verən çoxsaylı rusiyalı dövlət, ictimai, dini və mədəniyyət xadimləri iştirak etdilər", - deyə o bildirib.

Forumda qaldırılan neokolonializmə qarşı mübarizə mövzusunu şərh edən rusiyalı deputat qeyd edib ki, bu gün Qərb ölkələrinin, xüsusilə Avropanın bəzi aparıcı dövlətlərinin təqdim etdiyi hər bir razılaşmaya qeyri-adekvat münasibətlərlə qarşılaşmamaqdan ötrü onlara çox ehtiyatla yanaşmaq lazımdır.

"Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində Fransanın dənizaşırı ərazisində davam edən məcburi assimilyasiya fəaliyyətlərini xatırladıb. Sözsüz ki, həm Rusiya, həm də Azərbaycan beynəlxalq arenada açıq, ədalətli və bərabərhüquqlu dialoqa - istər siyasi, iqtisadi, istərsə də mədəni dialoqa tərəfdardır", - deyə Dmitri Savelyev əlavə edib.

Siyasətçi forum çərçivəsində "Mədəni irsin mühafizəsində qanunvericiliyin rolu: uğurlu təcrübələr" mövzusunda keçirilən parlamentlərarası konfransı "mühüm diskussiya platforması" adlandırıb. Konfransda milli və dünya mədəniyyətinin qorunub saxlanmasında qanunvericilik proseslərinin rolunun əhəmiyyəti müzakirə olunub.

"Rusiya təmsilçiləri forumun bir çox tədbirində iştirak ediblər. Məsələn, "Müxtəliflik harmoniyası: qlobal mədəni intibah naminə mədəniyyətlərarası dialoqun təşviqi" mövzusunda mədəniyyət nazirlərinin görüşündə Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova çıxış edib. O, Rusiyanın dövlət mədəniyyət siyasətinin prioritetlərini xarakterizə edib. Forum çərçivəsində Azərbaycan və Rusiya humanitar sahədə əməkdaşlığa dair mühüm sazişlər imzalayıblar. Qeyd etmək yerinə düşər ki, Azərbaycan getdikcə tez-tez mötəbər forumların və həqiqətən də dünya səviyyəli digər tədbirlərin təşkilatçısına çevrilir, konstruktiv beynəlxalq dialoqda təşəbbüsçü qismində öz mövqeyini ən yüksək səviyyədə möhkəmləndirir. Bu, bir çox halda ölkə rəhbərliyinin və şəxsən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin bəhrəsidir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu isə artıq bu ilin sentyabrında ənənəvi olaraq Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi X Sankt-Peterburq Mədəniyyət Forumu çərçivəsində öz işini davam etdirəcək", - deyə Dmitri Savelyev qeyd edib.

# Mina terroruna görə Ermənistan dünya birliyi tərəfindən qınanılmır

**Azərbaycan dünyanın minalarla ən çox çirkləndirilmiş ölkələri sırasında ilk üçülkdə yer alır. Mina terroru erməni terrorizminin daha çox istifadə etdiyi əsas üsullardandır. Ermənistan uzun illərdir işğal altında saxladığı torpaqlarımızın, demək olar ki, hər qarışına mina basdırıb. Hətta 2020-ci ildə Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk edərkən də ermənilər həmin ərazilərə əlavə minalar basdırmağı unutmadılar. Bu bir faktdır ki, ölkəmizin ərazisinin 12 faizi minalarla çirkləndirilib.**




2020-ci ildə müharibənin başa çatmasından bu il aprelin 27-dək 212 mina partlayışı hadisəsi baş verib. Nəticədə uşaqlar və qadınlar daxil olmaqla 356 şəxs bu partlayışların qurbanı olub. Ümumilikdə ötən 30 il ərzində Azərbaycandakı mina qurbanlarının sayı 3435 nəfərdir. Bu hadisələr göstərir ki, ərazilərin minalardan təmizlənməsinə və onun qurbanına çevrilən insanlara kömək göstərilməsinə təcili zərurət var.

Bakıda Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü" mövzusunda keçirilən tədbirdə Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko "Aİ digər məsələlərdə olduğu kimi, mina təhlükəsi sahəsində də Azərbaycanla əməkdaşlığı diqqətdə saxladığını və dəstəyini əsirgəmədiyini qeyd edərək deyib: "Azərbaycan vətəndaşları münaqişə başlayandan indiyədək çox əziyyət çəkiblər. Ötən müddət ərzində Aİ Azərbaycanın yanında olub və həmişə də olacaq. Hazırda minatəmizləmə məsələsi Azərbaycan üçün əsas prioritetlərdən biridir və biz ölkəyə bu istiqamətdə kömək etməyə hazırıq".

İşğal olunmuş ərazilərimizin minalarla çirkləndirilməsi faktını dünyanın heç bir dövləti və ya beynəlxalq təşkilat inkar edə bilmir. Hazırda ərazilərimizdə kütləvi şəkildə partlayıcı maddələrin, mina qalıqlarının olduğunu da gizlətmək mümkün deyil. Ermənistan isə minalanmış ərazilərin dəqiq xəritələrini verməkdən imtina edir. Təəssüf doğuran məsələ də budur ki, bu faktın dəqiqliyinə şübhə olmadığı halda özünü dünyada sülhün və ədalətin tərəfdarı kimi göstərməyə çalışan dövlətlər və beynəlxalq təşkilatlar Ermənistanı sərt şəkildə qınamadıqları kimi, ərazilərimizin minalardan təmizlənməsinə də praktiki olaraq kömək etmirlər. Bu bir yana, maddi cəhətdən də yardım etməkdə xəsislik edirlər.

Halbuki ərazilərimizin minalardan təmizlənməsi Azərbaycan-Aİ əməkdaşlığının ən mühüm istiqamətlərindən birinə çevrilə bilər. Tədbirdə iştirak edən Prezidentin köməkçisi Hikmət Hacıyev problemin aktuallığını dilə gətirərək qeyd edib ki, "Biz bu təşəbbüsün təfərrüatları, xüsusilə də onun maliyyə parametrləri haqqında daha çox şey öyrənməyi səbirsizliklə gözləyirik. Ümid edirik ki, maliyyələşdirmənin səviyyəsi üzləşdiyimiz problemin miqyasına uyğun olacaq. Bundan başqa, biz inanırıq ki, Avropa Komandası Təşəbbüsü çərçivəsində praktik layihələr üçün prioritetlərin müəyyənləşdirilməsi ev sahibi olan dövlətin prinsiplərinə əsaslanacaq. Bizə lazım olan real minatəmizləmədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Pul vermək istəmirsinizsə, pulu gəlib minatəmizləyən şirkətə verin, əgər kömək etmək istəyiniz varsa".

Xatırladaq ki, indiyədək minalardan təmizlənmiş 134 min hektar sahədən 119 mindən çox partlayıcı maddə tapılıb və bunlardan da 31 mini piyada əleyhinədir. Rəqəmlərin dili ilə ifadə etsək, hazırda ərazilərimizdə təxminən 1,5 milyon mina və partlayıcı qalıqları var. Minalanmış ərazilərin geniş bir ərazini əhatə etməsi sözsüz ki, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına mane olmaqla bərabər, həm də sosial-iqtisadi inkişafa ciddi əngəl törədir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü" mövzusunda keçirilən tədbirdə səslənilən fikirlər ümid etməyə əsas yaradır ki, başlanılan iş humanitar təsiri olmaqla yanaşı, sülh və barışıq prosesinə də müsbət təsir göstərə bilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Xarici səyyahlar Cəbrayılda minatəmizləmə əməliyyatları barədə məlumatlandırılıb

**Norveçin beynəlxalq səyahətçilərdən ibarət "Vagaclub"unun 30 nəfərlik geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri davam edir. AZƏRTAC xəbər verir ki, mayın 3-də Cəbrayıl rayonuna səfər edən xarici səyyahlar Cocuq Mərcanlı kəndi ərazisində minatəmizləmə prosesi barədə məlumatlandırılıb.**





Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməliyyat rəhbəri Qadir Namazəliyev səyahətçilərə ərazilərin Ermənistan tərəfindən minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verib. Bildirib ki, Cəbrayıl rayonu mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ərazilərdən biri hesab edilir.

Sonra xarici səyyahlar ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini izləyiblər.

Xatırladaq ki, heyət 3 gün ərzində avtomobil yolu ilə Füzuli-Xocavənd-Şuşa-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl xətti üzrə hərəkət edib.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania, o cümlədən bu klubların müxtəlif üzvlərinin birləşdiyi Türkiyənin Gəzginlər Klubunun, Britaniyanın "Piki Reels", İsveçin "Club 100" heyətlərinin ötən 4 ildə Qarabağ və Şərqi Zəngəzura 9 səfəri gerçəkləşib. Onlardan 1-i 2021-ci ildə, 4-ü 2022-ci ildə, 4-ü isə 2023-cü ildə baş tutub. Norveçin dünyaşöhrətli "Vagaclub"unun səfəri bu qəbildən sayca 10-cu səfərdir. Ümumilikdə bu 10 səfərdə 46 ölkədən 360-dan çox beynəlxalq səyahətçi azad edilmiş ərazilərdəki vəziyyətlə yerində tanış olmaq imkanı qazanıb. Dünyada milyonlarla insan onların vasitəsilə Qarabağdakı real vəziyyət barədə ətraflı məlumat alıb.

# *Norveçli səyyah:* "Dəqiq mina xəritələrinin təqdim olunması çox sayda insanın həyatını xilas edər"

**"Biz burada minaların zərərsizləşdirilməsi prosesindən çox təsirləndik. Ərazilərin minalardan təmizlənməsi üçün müxtəlif üsullardan və avadanlıqlardan istifadə olunur. Biz burada tank əleyhinə minaların zərərsizləşdirilməsi prosesini izlədik".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Cəbrayıl rayonunda səfərdə olan Norveçin beynəlxalq səyahətçilərdən ibarət "Vagaclub"unun üzvü Ula Yorgen Vastveit deyib.

"Bizə bu minaların necə basdırıldığı, Ermənistan ordusunun minaları basdırıb buradan çıxmaqları barədə məlumat verildi. Bu, həqiqətən də çox pis hərəkətdir. Dəqiq mina xəritələri təqdim olunmalıdır ki, Azərbaycan tərəfi minaların harada basdırıldığını bilsin. Bu addım çox sayda insanın həyatını xilas etmiş olar və minalardan təmizlənmə prosesi də sürətlənər", - deyə səyyah bildirib.

# *Kamila VADEN:* "Ərazilərin minalardan təmizlənməsinə şahidlik etmək bizi çox sevindirir"

**"Bütün bunlar inanılmazdır. Bu regiona (işğaldan azad olunmuş ərazilərə - red.) səfər edərək burada minaların zərərsizləşdirilməsi prosesini izləmək, binaların müharibə nəticəsində dağıdılmasını görmək çox ağrılı olsa da, hazırda burada aparılan bərpa və yenidənqurma işləri Azərbaycana yenidən ümid verir".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində Norveçin beynəlxalq səyahətçilərdən ibarət "Vagaclub"unun üzvü Kamila Vaden söyləyib.

O, işğaldan azad edilmiş ərazilərin böyük potensialının olduğunu bildirərək deyib: "Bu ərazilərin minalardan təmizlənməsinə, insanların təhlükəsizliyi üçün çox əhəmiyyətli işlərin görülməsinə və bu torpaqların yenidən qurulmasına şahidlik etmək bizi çox sevindirir. Bu ərazilərin həmçinin böyük turizm potensialı var".

# Norveçli səyyahlar qrupu Xudafərin körpüsü ilə tanış olublar

**Norveçin beynəlxalq səyahətçilərdən ibarət "Vagaclub"unun 30 nəfərlik geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri davam edir.**







AZƏRTAC xəbər verir ki, səfərin üçüncü və sonuncu günündə qonaqlar Cəbrayıl rayonuna səfər ediblər.

Norveçli səyyahlar qrupu unikal tarixi abidə olan Xudafərin körpüsünə gəliblər. Onlara Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun böyük qəhrəmanlığı nəticəsində azad olunan Cəbrayıl rayonu, o cümlədən Xudafərin körpüsü barədə, həmçinin Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayətlər haqqında məlumat verilib.

Bildirilib ki, Xudafərin körpüləri Azərbaycan memarlığının dəyərli abidələrindəndir. Tarixən İpək yolunun üzərində yerləşən körpülərdən biri 15, digəri 11 aşırımlıdır. XII-XIII əsrlərin yadigarı olan körpülər orta əsrlərdə Azərbaycanda yüksək sənətkarlığın inkişafından xəbər verir. Diqqətə çatdırılıb ki, digər ərazilər kimi, bu yerlər də dağıntılara məruz qalıb, işğal illərində evlər talan olunub, təbiət isə məhv edilib. Burada da bir çox tarixi-dini abidələr ermənilər tərəfindən təhqir edilib, məscidlər heyvan saxlancı kimi istifadə olunub, qəbirlər qazılaraq dağıdılıb. Vurğulanıb ki, məhz işğaldan azad edildikdən sonra Şərqi Zəngəzurda həyat canlanmağa başlayıb və ölkəmiz tərəfindən mühüm layihələr üzrə işlər aparılır.

# Qərb Gürcüstanı Ukraynaya çevirmək niyyətindədir

## Bu ölkə Azərbaycandan ruhlanaraq qəti mövqe nümayiş etdirir

*Əvvəli 1-ci səh.*

Məsələnin diqqətçəkən tərəfi Qərb ölkələrinin Gürcüstanda qəbul olunmaq ərəfəsində olan "Xarici təsir haqqında" qanun layihəsinə kəskin reaksiyası və etirazıdır. Gürcüstan hökuməti isə öz mövqeyində haqlıdır. Çünki bu gün Qərbin Gürcüstanda tətbiq etdiyi ssenari bu ölkəni Ukraynaya çevirmək niyyəti güdür. Eyni ssenari 2004-cü ildə Gürcüstanda tətbiq olunmuşdu. Hakimiyyətə gətirilmiş Mixail Saakaşviliyə yalan vədlər verilmiş, ölkə 2008-ci ildə Rusiya ilə qarşıdurmaya sürüklənmişdi. Nəticədə Cənubi Osetiya və Abxaziya itirilmişdi. Rusiya qoşunları isə Tbilisinin bir neçə kilometr yaxınlığına gəlib çatmışdı. Saakaşvilini bu avantüraya sürükləyən Qərb isə onun arxasında dayanmamış və nəticədə uduzan Gürcüstan cəmiyyəti olmuşdu.



Baş verənlər ABŞ başda olmaqla Qərbin Gürcüstan xalqına qarşı təxribatı idi və bunun yenidən təkrarlanmasına cəhd olunur. Ancaq 2004-cü ildən fərqli olaraq, gürcü xalqı təhlükəni görür və avantüraya getmir. Bilinir ki, ötən illər ərzində Qərb Gürcüstanda çox güclü şəbəkə qurub.

ABŞ, Fransa və digər "demokratiya mayakları" gürcü müxalifətinin əli ilə sözügedən qanunun qəbuluna qarşı çıxır. Həmin qanunun tətbiqinə tərəfdar olanların əsas arqumenti isə ondan ibarətdir ki, xarici maliyyələşdirmənin vergi orqanları qarşısında zəruri hesabatlılığını təmin etmək lazımdır.

Qeyd edək ki, hazırda ölkədə 25 min fəal QHT var ki, onların da 90 faizi xarici mənbələrdən maliyyələşir. Bu vəsaitlərin haradan gəldiyi, hansı məqsədlər üçün xərclənməsi ilə bağlı Gürcüstanda ciddi nəzarət mexanizmləri mövcud deyil. Söhbət xarici donorlardan qrant alanları kənar maliyyə mənbələri haqqında hesabat verməyə məcbur etməkdən gedir.

Göründüyü kimi, öz ölkələrində QHT sektoruna xaricdən gələn maliyyə mənbələrinə dördgözlə nəzarət edən, bu sahədə məhdudlaşdırıcı və cinayət məsuliyyəti nəzərdə tutan qərarlar qəbul edən Qərb postsovet ölkələrində analoji qanunların qəbul olunmasına aqressiv reaksiya verir, QHT-nin maliyyə mənbələrinin şəffaflığı üçün atılan addımlara antidemokratik don geyindirir, ölkənin daxili işlərinə açıq müdaxilə edir.

Gürcüstan cəmiyyətinin müqaviməti ABŞ-nin və Qərbin regiondan qovulması prosesinin təzahürüdür. Bu proses illər öncə Azərbaycandan başladı. 2010-cu ildən başlayaraq ABŞ-nin Azərbaycandakı şəbəkəsinin fəaliyyəti məhdudlaşdırıldı, NED təşkilatının Bakı ofisinin rəhbəri olan Aleks Qriqorevs kimi təxribatçıların cəmiyyəti, gəncləri qiyama qaldırmaq cəhdləri iflasa uğradıldı, QHT-lərin maliyyə fəaliyyətini şəffaflaşdıran qanunlar qəbul olundu və xaricdən maliyyələşmə prosesi nəzarətə götürüldü.

Maraqlıdır ki, bu gün "Xarici təsir haqqında" qanunun qəbul olunmasına qarşı sərt çıxış edən ABŞ özü bu qanunu hamıdan əvvəl qəbul edib, Aİ-də isə müvafiq hüquqi aktlar fəaliyyətdədir.

Regionda yaşanan siyasi proseslər fonunda ABŞ və Qərb başa düşür ki, Azərbaycanın mövqeyi olmadan və maraqları nəzərə alınmadan bölgədə hər hansı uğura nail olmaq mümkün deyil. Azərbaycan istəməzsə, onlar bu regionda ayaq aça bilməyəcəklər. Bu gün Bakıya təzyiqlər heç bir nəticə vermir və verməyəcək, antiazərbaycançı qüvvələr təzyiqlərin heç bir nəticə verməyəcəyini anlayaraq geri çəkiləcəklər. Bu gün Gürcüstan da məhz Azərbaycandan ruhlanaraq qəti mövqe nümayiş etdirməyə başlayıb.

Təsadüfi deyil ki, Qərb Gürcüstan üzərindən Azərbaycandakı şəbəkəsinin qalıqlarını qoruyub saxlamağa çalışır. ABŞ-nin başçılığı altında bəzi Qərb ölkələri və təsisatları Azərbaycanda illərdir eyni çirkin ssenarini həyata keçirməyə cəhd edirlər. Onlar Soros, USAID kimi fondlar vasitəsilə Azərbaycanda da "Abzas Media", "Toplum TV", müəyyən QHT-lər və digərlərini maliyyələşdirərək ölkəmizdə mənfur planlarının reallaşmasına çalışırlar. İstəyirlər ki, ölkəmizdə də siyasi sabitliyi pozsunlar, xalqla dövləti qarşı-qarşıya qoysunlar. Bir müddət əvvəl "Abzas Media"da, bu yaxınlarda isə "Toplum TV"də aparılan araşdırmalar zamanı sözügedən Qərb təsisatlarının Azərbaycanla bağlı məkrli planları faktlarla üzə çıxarıldı. "Toplum TV"nin ofisində axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi zamanı Qərb institutları tərəfindən Azərbaycan qanunlarına zidd şəkildə medianın, jurnalistlərin və ayrı-ayrı şəxslərin maliyyələşdirilməsinə dair ciddi dəlillər müəyyən edildi.

Faktlar göstərir ki, Qərb təsisatları tərəfindən geniş şəbəkə yaradılmaqla qanunsuz maliyyə maxinasiyaları həyata keçirilir və çirkli pullar yuyulur. Maliyyə Qərb institutları tərəfindən Gürcüstan vasitəsilə həmin şəbəkəyə ötürülüb. Bu zaman terror təşkilatlarının da istifadə etdiyi həvalə mexanizmindən və adsız kartlardan geniş istifadə olunub.

Göründüyü kimi, artıq bütün dünyaya məlumdur ki, ABŞ və bir sıra Qərb dövlətləri özlərinin hədəflərində olan ölkələri nəzarətdə saxlamaq üçün fərqli metod və vasitələrdən istifadə edirlər. Ən optimal metodlardan biri də bu ölkələrdəki müxalifət təşkilatlarını qanunsuz maliyyələşdirmək və onların fəaliyyəti üçün şərait yaratmaqdır. ABŞ və Qərb ölkələri məqsədlərinə çatmaq üçün uzun illərdir icra mexanizmi formalaşdırırlar. Bu gün istintaqa cəlb olunmuş şəxslər bütün cinayət əməllərini etiraf edirlər, adlar, təşkilatlar, maliyyə barədə ətraflı məlumatlar verirlər. Qərb təşkilatları tərəfindən onların üzərinə qoyulmuş vəzifələr həqiqətən də heyrətamiz və tükürpədicidir. Bunların hamısı artıq məlumdur və yaxın zamanlarda açıqlanacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Azərbaycan COP29 çərçivəsində Şərqlə Qərb arasında körpü olacaq



**2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi təkcə rəmzi məna daşımır, bu həm də o deməkdir ki, Azərbaycan sonrakı nəsillər üçün "yaşıl dünya" qurmaq istiqamətində fəaldır. Bu ilin belə adlandırılması eləcə də COP29 missiyasına verilən dəyərin təzahürüdür. COP29 həm də Azərbaycan üçün mühüm hadisə olmaqla yanaşı, ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamıdır.**

"Yaşıl iqtisadiyyat"a keçid iqtisadiyyatın modernləşdirilməsi və innovativ inkişafından, rəqabət qabiliyyətinin artırılması və enerji səmərəliliyinin təminatından, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasından başlayır. Bu məsələləri reallaşdırmaq istehsal sahələrinin ekolojiləşdirilməsini zəruri edir. Məlumat üçün bildirək ki, "yaşıl iqtisadiyyat" son onilliklərdə təbii mühitin meydana gələn bir hissəsidir, üstəlik də ondan asılı olan iqtisadiyyatdır. Bu, bütün dünyada belədir və hər il keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyalarında da "yaşıl iqtisadiyyat" istiqamətində ortaya çıxan ekoloji çağırışlar müzakirə olunur. Azərbaycanın COP29-a evsahibliyi etməsi də bu zərurətdən doğan hadisədir. Ölkəmiz bu missiyanı üzərinə götürməklə müsbət ekoloji dəyişikliklər yönümündə beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Bu da o deməkdir ki, Azərbaycan artıq "yaşıl enerji" iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını reallaşdırmaq üçün 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfə alıb.

Aydın məsələdir ki, hədəfə çatmaq üçün öncə maliyyə vəsaiti lazımdır. "Yaşıl iqtisadiyyat"ın inkişafına qoyulacaq sərmayələr insanların sağlamlığında rol oynamaqla yanaşı, iqtisadi artıma şərait yaradaraq çoxlu sayda müsbət nəticələr verə bilər. Təsadüfi deyil ki, COP29-un əsas mövzularından biri də iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi məsələsi olacaq. Çünki dünya ölkələri iqlim təsirlərinin azaldılması, uyğunlaşma və iqlimin möhkəmləndirilməsi kimi müxtəlif sahələrdə maliyyə dəstəyi tələb edirlər. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr bu problemin həlli üçün 100 milyard dollarlıq fond yaradacaqlarını bildirirlər. Lakin bu məsələ söhbət olaraq qalır. COP29 inkişaf etmiş ölkələri sözügedən maliyyə dəstəyi ilə bağlı vədlərini yerinə yetirməyə sövq edə bilər. Bunun vacibliyini Prezident İlham Əliyev Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında çıxış edərkən belə ifadə edib: "Əlbəttə ki, iqlim dəyişmələrinə aid olan məsələlərə gəldikdə, bizə maliyyə vəsaiti lazımdır. Bəli, maliyyə məsələsi öz növbəsində COP29-un əsas mövzusu olacaq".

Bu gün qlobal ətraf mühit problemi dünyanın qarşısında duran əsas vəzifədir. Ətraf mühitin çirklənməsindən dolayı yeni minillikdə ekoloji problemlər "yaşıl iqtisadiyyat"ın sürətli inkişafını tələb edir. İqlim dəyişikliyi nəticəsində yaranan fəsadlar göstərir ki, problemin həlli üçün bütün dünya birləşməlidir. Biomüxtəlifliyin itirilməsinə, torpaqların eroziyasına, meşələrin qanunsuz kəsilməsinə, havanın və çayların çirklənməsinə, tullantıların qeyri-rasional şəkildə idarə olunmasına və digər neqativ fəsadlara səbəb olan səhvləri birlikdə düzəltməyə çalışmalıdır. Bu səbəbdən də ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə qarşı davamlılığın artırılması istiqamətində əməkdaşlıq həyati vacib əhəmiyyət daşıyır. Başqa sözlə, dövlətlərarası həmrəylik və qarşılıqlı etimad bu gün hava, su kimi gərəklidir. Qeyd olunan forumda çıxış edən İlham Əliyev məhz bu fikri qabardaraq belə deyib: "Biz bir-birimizi günahlandırmalı deyilik ki, kim planetə daha çox zərbə vurub. Yaxud da qlobal istiləşməyə görə kimin daha çox məsuliyyət daşıması ilə bağlı mübahisə etməməliyik. Əgər biz bu davranışı davam etdirsək, onda bunun sonu faciə olacaq. Mən bu yaxınlarda tərəfdaşlarımızla iqlim dəyişikliyi ilə bağlı danışdım. Bu, qaçılmazdır. Çünki biz neft hasil edən ölkəyik və dedim ki, neft-qazımızın olması bizim günahımız deyil. Başqalarının da belə təbii sərvətləri var və əlbəttə ki, onların öz təbii sərvətlərindən ölkələrinin faydası üçün istifadə etmək imkanı var. Azərbaycana gəldikdə, bu imkan nəinki Azərbaycana aiddir, biz təbii qazımızı səkkiz ölkəyə çatdıraraq onların enerji təhlükəsizliyinə töhfə veririk. Əgər biz bu gün məhz yol təchizatlarına, enerji təchizatlarına baxsaq, görərik ki, onlar çox müxtəlifdir. Ona görə bizim səylərimiz körpülərin salınmasına yönələcək".

COP29-un işə başlayacağı vaxt yaxınlaşdıqca beynəlxalq ictimaiyyət Azərbaycan kimi ölkələrin istixana qazı emissiyalarını azaltmaq və bərpaolunan enerjinin təmin olunmasını təşviq etmək üçün gördüyü tədbirlərə diqqət yetirir. Azərbaycan bu məsələ il bağlı "yaşıl enerji" sektoruna sərmayə qoyur və enerji kompleksini şaxələndirməklə qalıq yanacaqlardan asılılığını azaldır, üstəlik də aşağı karbonlu iqtisadiyyata keçiddə öz liderliyini təmin edir. Bu, digər ölkələrə örnək olmaqla onları həmrəy olmağa ruhlandırır və "yaşıl gələcəy"ə inamı artırır. Qeyd olunan forumda çıxış edən Prezident İlham Əliyevin bu istiqamətdə fikirləri belə idi: "Avropa-Qlobal Cənub istiqamətinə və həmrəyliyə gəldikdə, biz buna nail ola bilərik. Bunun üçün biz ürəkdən çalışmalıyıq, gündəliyimiz də buna köklənib. Eyni zamanda bizim özümüzün "yaşıl gündəliy"imiz var və biz buna COP29-a evsahibliyi etmək şərəfinə layiq görüləndən xeyli əvvəl başlamışıq. 2027-ci ilə qədər bizdə 2 qiqavat günəş və külək enerjisi stansiyaları işə düşəcək və 2030-cu ilə qədər əlavə 5 qiqavat da istismara veriləcək. Bunun sayəsində bərpaolunan enerjini elektrik enerjisi istehsalında istifadə etmək üçün bizə imkan yaranacaqdır. Bütün bunlar üçün biz çox yaxşı sərmayə şəraiti yaratmışıq, sərmayədarlar var. Biz həmçinin bərpaolunan enerji mənbələrindən istifadə edirik. Bu, elə bir faktdır ki, biz onun əsasında beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilməliyik, yalnız sırf neft-qazın olması ilə deyil. Yəni biz bununla bağlı hər hansı səhv addım atmırıq. Azərbaycan, onun göstəriciləri, iqlim dəyişmələrinə gəldikdə, hesab edirəm ki, onlar nümunəvi hesab oluna bilər".

Dövlət başçısının təbirincə desək, Azərbaycan COP29-a yekdil qərarla evsahibliyi edən ölkə kimi indi öz rolunu körpülərin salınmasında görür. Qlobal tədbirdə Azərbaycan tarixi, qarşılıqlı əlaqələr, Avropa təsisatları ilə olan münasibətlər eyni zamanda coğrafi baxımdan Qərblə Şərq arasında yerləşdiyi üçün körpü olacaq. Hazırlıqların ən yüksək səviyyədə aparılması deyilənlərin reallaşacağını diktə edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bakıda qonaqpərvərlik sahəsi üzrə karyera sərgisi təşkil edilib



**Mayın 4-də Bakıda Azərbaycan Hotel Assosiasiyası (AHA) tərəfindən qonaqpərvərlik sahəsində işaxtaranlar üçün karyera günü təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil Tələbə Krediti Fondu və "Abşeron Hotel Group"un birgə əməkdaşlığı ilə təşkil olunan karyera günündə AHA-ya üzv olan Bakıda və regionlarda yerləşən 50 hotel 300-dən çox vakansiya və təcrübə proqramları ilə iştirak edib.

Azərbaycan Hotel Assosiasiyası İctimai Birliyinin İdarə Heyətinin sədri Eldar Əlimuradov ötən il təşkil olunan karyera gününün çox böyük maraqla qarşılandığını bildirib. Qeyd edib ki, gənclərin işlə təmin olunması, ehtiyaclarını qarşılaması baxımından belə tədbirlərin keçirilməsi çox zəruridir.

"Bu gün biz gəncləri sadəcə iş imkanları ilə deyil, eyni zamanda qonaqpərvərlik sahəsi ilə tanış edirik. Bildiyiniz kimi, Azərbaycan noyabr ayında COP29 iqlim sammitinə evsahibliyi edəcək. Tədbir ölkəmizin imici baxımından çox vacibdir. Azərbaycana gələcək qonaqları və turistləri qonaqpərvərliyimizlə və yüksəkkeyfiyyətli xidmətimizlə tanış etməyi hədəfləyirik. Əminliklə deyə bilərəm ki, biz bu möhtəşəm hədəfimizə çatacağıq. Hazırda hotelçilik sahəsində yeni kadrlara, gənc istedadlara çox böyük ehtiyacımız var. Odur ki, burada olan gənclərin hər birinin bu imkandan istifadə etməsini istəyirik", - deyə E.Əlimuradov diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Azərbaycan Turizm Bürosunun İdarə Heyətinin sədrinin müavini Rəşad Əliyev əmək bazarında ixtisaslı və rəqabətqabiliyyətli kadrların hazırlığı üçün turizm təhsilinin keyfiyyəti ilə yanaşı, müvafiq iş imkanlarının yaradılmasının və əlçatan olmasının mühümlüyünü diqqətə çatdırıb.

R.Əliyev bu baxımdan bu cür karyera sərgisi və əmək yarmarkalarının keçirilməsinin işaxtaranlar və sənayenin birbaşa ünsiyyəti üçün vacib platforma olduğunu qeyd edib.

COP29-un əhəmiyyətli tədbir olduğunu deyən R.Əliyev tədbirin əsas ağırlığının hotel sənayesi üzərində cəmləşdiyini deyib: "Bu möhtəşəm tədbirdə qonaqları yüksək səviyyədə qəbul etmək çox vacibdir. Bütün gənclərə səslənərək bildirmək istəyirəm ki, hotelçilik çox maraqlı sahədir. Həmçinin artıq turizm bir çox ölkənin iqtisadiyyatı baxımından vacib amilə çevrilib. Bu sahədə perspektiv çox böyükdür".

Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin müavini Cəmaləddin Quliyev agentlik tərəfindən bir çox əmək yarmarkasının təşkil olunduğunu bildirərək deyib: "Bu yarmarkalarda işaxtaranların çoxu işlə təmin olunub. Hazırda isə turizm sektorunun inkişafı üçün bu sərgi böyük əhəmiyyət kəsb edir".

Təhsil Tələbə Krediti Fondunun sədri Araz Paşayev çıxış edərək fondun fəaliyyətinin əsas məqsədinin təhsilə əlçatanlığı təmin etmək, təhsilin əhatə dairəsini genişləndirmək və keyfiyyətini yüksəltmək və s. olduğunu bildirib. Həmçinin keçirilən tədbirin əhəmiyyətindən bəhs edən A.Paşayev belə tədbirlərin işaxtaran gənclər üçün faydalı olacağına əminliyini ifadə edib.

Azərbaycan Hotellər Assosiasiyasının baş icraçı direktoru Günay Sağlam turizmin imkanlarla dolu peşə olduğunu deyib. O, tədbirdə iştirak edən gənclərə COP29 barədə ətraflı məlumat verib: "Bu tədbirin yüksək səviyyədə keçməsi üçün əlimizdən gələni etməliyik. Biz hotelçilər olaraq bu sahədə köməklik göstərməliyik. Vacib olan məqam isə gülərüz xidmətdir. Azərbaycanın qonaqpərvərliyini ölkəmizə gələn qonaqlara, turistlərə sərgiləmək ən mühüm məqamdır. Bunun üçün hazırda çox işlər görülür və görüləcək".

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov turizmin çox dinamik sektor olduğunu bildirib. O, tədbirin turizm sektorunda bacarıqlı kadrların sayının artmasına öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

"Absheron Hotel Group"un əməliyyatlar üzrə baş direktoru Aytəkin Karayaka "Qonaqpərvərlik karyerasında uğura aparan yol - bir hotelçinin uğur hekayəsi" mövzusunda çıxış edib. O, gənclərə turizm sahəsində uğura aparacaq bir neçə istiqamət barədə məlumat verib.

Karyera gününə ümumilikdə 20 universitet və peşə məktəbinin mindən çox tələbə və məzunları qatılıb. Həmçinin tədbir çərçivəsində qonaqpərvərlik üzrə master-klaslar təşkil olunub, Azərbaycan Hotel Assosiasiyası və üzv olan hotellərin təmsilçiləri tərəfindən hotelçilik sahəsinin turizmdə yeri, COP29 çərçivəsində qonaqpərvərliyin ölkəmizin imici üçün vacibliyi, turizmdə insan resurslarının əhəmiyyəti kimi mövzularda təqdimatlar keçirilib.

# FAO COP29-un yüksək səviyyədə keçməsi üçün Azərbaycana dəstək verməyə hazır olduğunu bildirib

**Ölkəmizin sıx əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatıdır (FAO). Azərbaycan bu təşkilata 1995-ci ildə üzv olub.**

Həmin tarixdən ölkəmizdə FAO milli, regional və qlobal layihələr həyata keçirir. İcra edilən layihələrin əsas məqsədi kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, potensialın artırılması, resursların idarə edilməsi, həmçinin heyvan və bitki xəstəliklərinə qarşı mübarizə, təchizat və texniki yardımların göstərilməsidir.

Bu təşkilatın rəhbərliyi dəfələrlə Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirmiş, ölkəmizi etibarlı tərəfdaş kimi yüksək qiymətləndirərək üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirdiyini vurğulamışdır. O üzdən Azərbaycanla beynəlxalq təşkilat arasında olan əlaqələr ildən-ilə genişlənərək daha çox sahələri əhatə etməyə başlamışdır.

2009-cu ildə Azərbaycan Hökuməti ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı aqrar sahənin inkişafında texniki yardımın göstərilməsi üçün dəstək proqramının hazırlanması prosesinə start vermişdir. Xüsusi olaraq Azərbaycan üçün FAO-nun Milli Ortamüddətli Prioritetlər üzrə 2016-2020-ci illəri əhatə edən Çərçivə Sənədi hazırlanmışdır və bu sənəd müntəzəm surətdə ölkəmizin prioritetlərinə uyğun olaraq yenilənməkdədir. Sözügedən sənəd hökumətin mövcud milli siyasəti və planları çərçivəsində kənd təsərrüfatı üzrə inkişaf prioritetlərinin həyata keçirilməsində müəyyən olunmuş səviyyədə xidmətlər göstərilməsini nəzərdə tutur. Sənədin əsas mahiyyəti ölkədəki vəziyyətin qısa təhlili və növbəti 3-4 il müddətində yardım üçün prioritet tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Bakıda 2012-ci il aprelin 16-da FAO və qeyri-hökumət təşkilatlarının Avropa üzrə regional müşavirəsi, həmin ayın 17-18-də Kənd Təsərrüfatı üzrə Avropa Komissiyasının 37-ci sessiyası, 19-20-də isə FAO-nun 28-ci Avropa Regional Konfransı keçirilmişdir. Bu tədbirlər təşkilatın ölkəmizlə əməkdaşlıqdan razı qalmasının göstəricisidir.

"Azərbaycan Hökuməti və FAO arasında tərəfdaşlıq və əlaqələndirmə ofisinin yaradılması və texniki yardımın göstərilməsi haqqında Saziş" və "Azərbaycan Hökuməti və FAO arasında FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında Saziş" təşkilatın baş direktoru Qratsiano da Silvanın Azərbaycana səfəri zamanı 2015-ci il mayın 25-də imzalanmış, 2015-ci il oktyabrın 12-də Prezidentin fərmanı ilə təsdiq edilmişdir.

2015-ci ildə "Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq" (IDEA) İctimai Birliyinin təsisçisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva FAO-nun xoşməramlı səfiri seçilmişdir. Bundan sonra Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Romadakı baş ofisində "Azərbaycan otağı" təsis edilmişdir. Burada MDB ölkələri arasında ilk dəfə məhz Azərbaycanın adını daşıyan otaq yaradılmışdır. Otağın tərtibatında Azərbaycanın milli ornamentlərindən, musiqi alətlərindən və xalçalarından istifadə edilmişdir.

Bu günlərdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə Regional nümayəndəsi Viorel Gutunun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı təşkilatla Azərbaycan arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi müzakirə olunmuşdur. Kənd Təsərrüfatı Nazirliyində görüş zamanı qonaqların nəzərinə çatdırılıb ki, aqrar sahədə qabaqcıl təcrübənin ölkəmizdə tətbiqi məqsədilə beynəlxalq təşkilatla əməkdaşlıqda maraqlıyıq.

Məlum olduğu kimi, Azərbaycan növbəti bir beynəlxalq tədbirə evsahibliyi edəcək. Prezident İlham Əliyev dünya ölkələrinin yekdilliklə COP29-un ölkəmizdə keçirilməsinə razılıq verməsini Azərbaycana göstərilən böyük etimad olduğunu bildirmişdir. Ölkəmizdə COP29-un keçirilməsini dəstəkləyən beynəlxalq qurumlardan biri də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatıdır. Bu mötəbər təşkilatın Avropa və Asiya üzrə Regional nümayəndəsi Viorel Gutun Kənd Təsərrüfatı Nazirliyində keçirilən görüşdə BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının Azərbaycanda yüksək səviyyədə keçirilməsinə hər cür dəstək verməyə hazır olduğunu bildirmişdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




# Azərbaycanın zamanı qabaqlayan enerji siyasəti

## Enerji diplomatiyası, milli təhlükəsizlik və xarici siyasət

**Enerji diplomatiyası - beynəlxalq münasibətlərin əsası, xarici siyasət və milli təhlükəsizliklə sıx bağlı olan mürəkkəb sahədir. Bu əlaqə xüsusən enerji diplomatiyasının nisbətən yeni sahə kimi milli xarici siyasətə inteqrasiyasında açıq müşahidə olunur.**

Xarici siyasət min illər ərzində bəşər sivilizasiyasını müşayiət etsə də, enerjinin bu sahəyə müdaxiləsi son 150 ildə baş vermişdir. Lakin həmin zaman kəsiyində enerji və xarici siyasət çoxsaylı nöqtələrdə kəsişmişdir və onlar qarşılıqlı əlaqədə olan elementlərə malikdirlər. Xarici siyasət öz növbəsində milli təhlükəsizlik konsepsiyası ilə sıx bağlıdır və ondan asılıdır. 29 iyun 2004-cü ildə qəbul olunmuş "Milli təhlükəsizlik haqqında" qanunda yazılıb ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir.

Üç konsepsiya - milli təhlükəsizlik, xarici siyasət və enerji təhlükəsizliyi bir-biri ilə bağlılığı olan quruluşa malikdir. Burada milli təhlükəsizlik ən ümumi anlayışdır, milli təhlükəsizliyin risklərinin beynəlxalq aspektlərini əhatə edən xarici siyasət ondan bir pillə aşağıda durur. Miqyasına görə ən aşağıda isə enerji diplomatiyası dayanır. Xarici siyasət milli təhlükəsizliyi təmin edən alətdir. Milli təhlükəsizlik isə birbaşa enerji diplomatiyası ilə əlaqədardır. Milli təhlükəsizliyin əhatə etdiyi çoxsaylı təhlükələrə geniş spektrli risklər, o cümlədən iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi, fiziki təhlükəsizlik, ətraf mühit, ərzaq, miqrasiya, kibertəhlükəsizlik və s. daxildir.

Dövlətin iqtisadi təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Milli təhlükəsizlik iqtisadi təhlükəsizliklə yanaşı, dövlətin xarici-siyasi, daxili-siyasi, hərbi, informasiya, şəxsi, sosial, mənəvi, ekoloji və təhlükəsizliyin digər növlərini də birləşdirir. İqtisadi təhlükəsizliyin təmini dövlətin funksiyası kimi yaranmışdır. O, digər sahələrə təsirinə görə aparıcı rola malikdir.

Enerji diplomatiyasına gəldikdə, o, enerji təhlükəsizliyinin təmininə yönəlmiş inkişaf edən diplomatiya



sahəsidir. Enerji özünün milli təhlükəsizlik və iqtisadiyyata güclənən təsiri nəticəsində diplomatiya və xarici siyasət sahəsinə daxil olmuşdur. Enerji hər bir işi yerinə yetirmək qabiliyyəti olmaqla iqtisadiyyatı qidalandırır. Onun fasiləsiz axını həm ölkə iqtisadiyyatının inkişafı, həm də istehsal olunmuş məhsulların ixracı, beynəlxalq iqtisadi münasibətlərin daimiliyi üçün zəruri ehtiyaclardan biridir.

Dünyadakı dəyişən vəziyyət bəzi amilləri meydana çıxarmış, bu isə enerji təhlükəsizliyi və enerji diplomatiyasının milli təhlükəsizliyin gündəliyində daha vacib yer tutmasına səbəb olmuşdur. Çünki müasir istehlakçı və müasir iqtisadiyyat enerjidən kəskin surətdə asılıdır. Nəticədə bu gün iqtisadiyyat və energetikanı bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Hətta enerji iqtisadiyyat və hakimiyyət üçün sinonimə çevrilmişdir. Təsadüfi deyil ki, enerji ehtiyatlarına əlçatanlıq hazırda müharibələrin nəticələrini müəyyən edən faktorlardan biridir. Dövlətlər enerji ehtiyatlarına malik olmalarından özlərinin siyasi və geosiyasi məqsədlərinə çatmaq üçün fəal istifadə etmək imkanı qazanmışlar. Neft-qaz istehsalçıları qlobal biznesdə ən gəlirli və təsir imkanına malik şirkətlər hesab olunurlar.

Söz ki enerjidən düşdü, qeyd edək ki, enerji diplomatiyası enerji ehtiyatlarına və bazarlarına çatımlılığı genişləndirməyə yönəlmiş diplomatik fəaliyyətdir. Bu, siyasətə, xarici hökumətlərin qərar və davranışına təsiretmə sistemidir. Enerji diplomatiyasının məqsədi iqtisadi və enerji təhlükəsizliyini təmin etməkdir.

Enerji təhlükəsizliyi müxtəlif dövlətlər üçün müxtəlif anlam kəsb edə bilər. İnteqrasiya rejimlərinin müxtəlifliyini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, həm tarixi, həm də konseptual cəhətdən enerji milli xarici siyasətə iki yolla - təhlükəsizlik və iqtisadiyyat yolları ilə daxil edilmişdir. Enerji təchizatı və ona əlçatanlıq bir çox dövlətin milli təhlükəsizliyi üçün həlledici amil olduğuna görə enerji onların milli siyasətinə təhlükəsizlik yolu ilə daxil olmuşdur. Bu cür dövlətlər enerji ehtiyatları olmayan və bu səbəbdən idxaldan asılı olan ölkələrdir.

Enerji məsələləri həm də iqtisadiyyatla bağlı olmaqla iqtisadi diplomatiyanın təsir dairəsinə düşür. Məlumdur ki, bir çox ölkənin iqtisadiyyatının əsasını enerji ehtiyatları təşkil edir. Enerji ehtiyatlarından səmərəli istifadə, xüsusən bərpaolunan enerji ehtiyatlarının istehsalı müasir dövrdə özünün aktuallığı ilə diqqəti cəlb edir və iqtisadi inkişaf üçün mühüm perspektivlər yaradır. Bundan əlavə, müasir dövr iqtisadi təhlükəsizliyin təmin olunmasını hər bir müstəqil dövlətin əsas vəzifələrindən biri kimi şərtləndirir. Beynəlxalq vəziyyətdə zaman-zaman baş verən dəyişikliklər dünya birliyi ölkələrinin siyasi, iqtisadi və hərbi münasibətləri sahələrində yeni yanaşmalara yol açır. Həmin yanaşmalar milli təhlükəsizliyin təminində, o cümlədən iqtisadi münasibət və proseslərdə dəyişikliklər tələb edir, eləcə də müharibələrin tam aradan qalxmadığı günümüzdə iqtisadi təhlükəsizlik sahəsində praktiki addımlar atılması zəruriliyini meydana çıxarır. Beləliklə, hazırkı dövrdə dövlətlərin hər birinin ilkin vəzifələrindən biri iqtisadi təhlükəsizliyi, başqa sözlə desək, daxili sabitliyi, ölkənin beynəlxalq əmək bölgüsündə fəal iştirakını təmin etməyə nail olmaqdır. İqtisadi təhlükəsizlik iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman dayanıqlı iqtisadi artım, ictimai ehtiyaclar, yüksəkkeyfiyyətli idarəçilik, iqtisadi maraqların qorunması milli və beynəlxalq səviyyədə səmərəli şəkildə təmin olunur. İqtisadi təhlükəsizliyin əsas göstəriciləri - ümumi daxili məhsulun artımı, iqtisadiyyatın quruluşu və rəqabət qabiliyyəti, həyat səviyyəsi və keyfiyyəti, inflyasiya sürəti, işsizlik norması, idxaldan asılılıq, daxili və xarici borcların səviyyəsi və s. hesab edilir.

Məlumdur ki, SSRİ-nin süqutu 15 müstəqil dövlətin yaranmasına və vahid iqtisadi məkanın parçalanmasına səbəb oldu. Keçmiş sovet dövründə müttəfiq respublikalar arasında formalaşmış iqtisadi əlaqələrin pozulması gənc müstəqil ölkələrdə iqtisadiyyatı iflic vəziyyətinə saldı. 1989-cu ildən başlamış geriləmə prosesi müstəqilliyin ilk üç ilində daha da dərinləşdi.

1991-ci ildə müstəqilliyini bərpa edərək bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan Azərbaycan da böyük iqtisadi və siyasi çətinliklərlə rastlaşdı. 1991-1993-cü illərdə Azərbaycanın siyasi mənzərəsini hakimiyyət uğrunda mübarizə, silahlı qruplaşmalar və qarşıdurmaların artması, keçmiş dağlıq Qarabağ problemi, Azərbaycan torpaqlarının işğalı kimi hakimiyyətsizlik əlamətləri xarakterizə edirdi. Xaos, qarışıqlıq, hərc-mərclik inkişafın deyil, tənəzzülün əlamətləri idi. Milli iqtisadiyyatın dirçəldilməsi üçün isə ictimai-siyasi sabitlik yaradılmalı, iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstək verilməsi təmin olunmalı idi. Bu cür siyasi təkan olmadan iqtisadi quruculuq sahəsində uğurlar əldə etmək mümkün deyildi.

Belə bir dövrdə xalqın tələbi və seçimi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın neft strategiyasını müəyyən və inkişaf etdirdi. Bu siyasət dövlət müstəqilliyinin qorunması və gücləndirilməsinə yönlənmişdir. Ulu Öndərin rəhbərliyi altında qəbul edilən radikal qərarlar islahatların dönməzliyinin təmin edilməsində həlledici rol oynadı. "Əsrin müqaviləsi" əsasında Azərbaycanda kifayət qədər iri həcmdə neft istehsalına nail olunması istər praktiki, istərsə də hüquqi gözləntisi olan məsələ idi. Heydər Əliyevin müdrikliyi onda idi ki, neft istehsalına hələ xeyli müddət qalmasına baxmayaraq, onun daşınması marşrutu da müəyyən edildi. Əslində, məsələlərin həllinə bu cür uzangörənliklə yanaşmaq Heydər Əliyevə xas olan xüsusiyyət idi. Hər işin vaxtında həlli uğurun təmini üçün əsas yaradırdı.

Cənab İlham Əliyev həmin dövrlərin çətinliklərini xatırlayaraq sonralar demişdi: "Hamımız yaxşı xatırlayırıq ki, 1991-1993-cü illərdə yaranmış xaos, anarxiya iqtisadiyyata da böyük zərbələr vurmuşdu. Demək olar ki, iqtisadiyyatımız tamamilə dağılmışdı, böhran içində idi. ... Heydər Əliyev tərəfindən müəyyən edilmiş neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. Azərbaycana böyük həcmdə sərmayə qoyulubdur, yeni infrastruktur yaradılıbdır, neft kəmərləri tikilibdir və tikilməkdədir. Bir sözlə, neft strategiyası bizə imkan verir ki, bu gün də, gələcəkdə də neftdən əldə olunan gəlirlərdən səmərəli istifadə edərək Azərbaycanı hərtərəfli inkişaf etdirək, xalqımız üçün gözəl şərait yaradaq".

Heydər Əliyevin neft strategiyasının uğurlu və səmərəli nəticələri Azərbaycanın sosial-iqtisadi inkişafına təkan verən mühüm amil olmaqla dünyada neft siyasətinin formalaşdırılmasında xüsusi əhəmiyyət kəsb etdi. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 8 dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə idi. "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq iqtisadiyyata inteqrasiyasını sürətləndirdi, regional əhəmiyyətli, qlobal xarakterli yeni əməkdaşlıq platformalarının yaranmasını təmin etdi. Bu müqavilə həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində çox mühüm rola malik idi. 1994-cü ildən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanması Azərbaycanın beynəlxalq əməkdaşlıq və enerji sahəsində böyük uğurlarına yol açdı.

Amma bu, təməl idi və o, Azərbaycan iqtisadiyyatının tam inkişaf yoluna çıxması üçün önəmli rol oynadı. Cənab İlham Əliyev neft strategiyasının həmin cəhətlərini nəzərə alaraq demişdir: "Heydər Əliyevin neft strategiyası davam etdiriləcəkdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri 2005-ci ildə istismara veriləcəkdir. Ondan sonra Azərbaycan ildə 50 milyon ton neft ixrac edəcəkdir. Bu da ölkəyə milyardlarla dollar valyuta gətirəcəkdir. Bu vəsaitlə Azərbaycanın hər bölgəsi, iqtisadiyyatın hər bir sahəsi inkişaf edəcəkdir".

*Vüsalə MURADXANLI,*
*Vəkillər Kollegiyasının üzvü*

# Gələcək mühəndislərlə sənaye müəssisələri arasında əlaqə yaradılır





**Azərbaycanda ən iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətinin ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə proqramlarının bir istiqaməti də təhsilə dəstəkdir. Şirkətin Sumqayıt Dövlət Universitetində bu günlərdə başladığı layihə ali təhsillə sənaye arasında yeni tərəfdaşlıq imkanı yaratmağa xidmət edir.**

Kimya mühəndisliyi üzrə yeni magistr proqramı iri bir təhsil layihəsidir. Bu, ölkəmizin yüksəkixtisaslı kimya mühəndislərinə tələbatının təmin edilməsinə bir töhfə olacaq. Layihə əsasən Sumqayıt şəhərinin əmək bazarının, sənaye potensialının və xidmət sahələrinin ehtiyaclarını nəzərə alaraq düşünülüb. Sənayenin tələblərinə uyğunlaşdırılmış yeni tədris proqramına kimyəvi proseslər, istehsal prosesləri və ekoloji dayanıqlılıq kimi sahələr daxildir. Proqramın təlim materialları xüsusi olaraq Sumqayıt şəhərinin sənaye və texnoloji müəssisə və şirkətlərinin ehtiyacları üçün hazırlanıb.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bununla bağlı deyib: "Hesab edirik ki, bu layihə mütəxəssis hazırlığının biznes və sənaye ehtiyaclarına uyğunlaşdırılması istiqamətində növbəti uğurlu təşəbbüsdür. Kimya mühəndisliyi ixtisasına ölkənin digər şəhərlərindən daha çox məhz Sumqayıtda ehtiyac duyulur. Azərbaycanın iri sənaye mərkəzlərindən biri kimi çoxsaylı müasir sənaye və texnoloji müəssisələrin yerləşdiyi Sumqayıtda yüksəkixtisaslı kimya mühəndislərinə böyük tələbat var. Digər tərəfdən, layihə bütövlükdə ölkə iqtisadiyyatı üçün kimya sənayesinin əhəmiyyətinin artdığı bir vaxtda həyata keçirilir. Ölkənin kimya potensialının mühüm hissəsi isə məhz Sumqayıtda yerləşir. Bu baxımdan ümid edirik ki, proqramın məzunları müasir texnoloji biliklərə, çevik qabiliyyətlərə, innovativ bacarıqlara yiyələnəcək, ən əsası isə doğma şəhərlərinin və ölkənin sənaye tendensiyalarının və iqtisadi inkişaf planlarının həyata keçməsi səylərinə böyük həvəs və enerji ilə qoşulacaqlar".

Nəzərdə tutulur ki, yeni magistr proqramına əvvəlcə iki ixtisas sahəsi - əsas üzvi sintezin kimyası və texnologiyası və polimerlərin kimyəvi texnologiyası üzrə 15 tələbə qəbul olunacaq. Gələcəkdə isə proqram genişləndirilərək əlavə dörd sahəni əhatə edəcək. Növbəti beş il ərzində qəbul sayı ümumilikdə 95 nəfərə çatdırılacaq.

Layihə çərçivəsində bir sıra fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur. Belə ki, yeni tədris proqramı və ümumilikdə yeni tədris məzmunu əsasında bilik və fənn bacarıqlarını təkmilləşdirmək məqsədilə universitetin 15-dək müəlliminə təlim keçiləcək. Sonra bir qrup müəllim yeni məzmun əsasında təcrübə keçmək və öz fənləri üzrə ən son yenilikləri öyrənmək üçün xarici universitetlərə ezam olunacaq. Proqramın müəllim heyəti ilə təcrübə, bilik və bacarıqlarını bölüşmək üçün aparıcı beynəlxalq təlimçilər və ekspertlər gələcək. Tədris metodlarını və pedaqoji yanaşmaları genişləndirmək məqsədilə digər yerli universitetlərdən beş təcrübəli müəllim dəvət ediləcək. Proqramda iştirak edən tələbələr təhsil müddətinin əhəmiyyətli bir hissəsi ərzində sənaye müəssisələri tərəfindən həyata keçirilən layihələrə cəlb olunacaqlar. Bu, onlara öz elmi işlərini sənayedən əldə etdikləri praktik biliklər əsasında yazmağa kömək edəcək.

Eləcə də kimya mühəndisliyi və kimya laboratoriyaları və sinif otaqları müasir texnologiya və avadanlıqlarla yenilənəcək. Bunun sayəsində universitet sənaye müəssisələrinə yeni xidmət imkanları təklif etməklə onlarla sıx əlaqələr qura biləcək. Müddəti 13 ay olan bu layihənin dəyəri 339 min manatdan (199 400 dollardan) çoxdur. Qeyd edək ki, fəaliyyətə başladığı vaxtdan indiyədək BP-nin özü və əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 110 milyon dollardan çox vəsait xərcləyib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Dövlət Xidməti: "Bir sıra bank və müəssisələrə aid çoxsaylı konfidensial məlumatlar ödənişsiz platformalarda dərc olunur"

**Kibertəhlükələrin daim inkişaf etdiyi zamanda məlumatların təhlükəsizliyi mühüm əhəmiyyət kəsb edir. Zərərli proqramlar mürəkkəbləşdikcə onların davranış monitorinqi çətinləşir və tədqiqat üçün çox vaxt sərf edilir. Son illərdə təhdidlərin sürətli aşkarlanması üçün qabaqcıl üsullardan istifadə edilir. Bu üsullardan biri "sandbox" sistemlərinin tətbiqidir.**

AZƏRTAC Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) yaydığı məlumata istinadən xəbər verir ki, "sandbox" sistemi zərərli faylların və proqram təminatlarının qısa zamanda tədqiqini və qiymətləndirilməsini aparmaq üçün nəzərdə tutulmuş çox faydalı bir alətdir.

Quruma özəl "sandbox" sistemlərinin təchiz edilərək qurulması vəsait tələb etdiyindən bir çox istifadəçi bu kimi həllərin bulud versiyalarından, bir çox halda isə ödənişsiz versiyalarından istifadə edir. Fərdi istifadəçilərin şübhəli hesab etdikləri faylların zərərli olub-olmadığını təyin etmək məqsədilə onları internet vasitəsilə sözügedən sistemlərə göndərməsi və nəticə əldə etməsi üçün yaradılmış belə ödənişsiz "sandbox" sistemləri göndərilən faylların məxfiliyini və ya konfidensiallığını qorumur.

"Belə ki, fərdi istifadəçilər üçün nəzərdə tutulmuş bu cür ödənişsiz platformalar sistemə yüklənən istənilən faylı öz saytlarında yoxlanılmış fayl kimi qeyd etməklə dərc edirlər. Bundan xəbərsiz olan, lakin daxil olmuş faylların təhlükəsizliyini yoxlamamaq üçün belə ödənişsiz xidmətlərdən istifadə edən bir çox müəssisə və bankların əməkdaşları konfidensial və fərdi məlumatları bilmədən ifşa etmiş olurlar. Hazırda ölkəmizdə ən çox istifadə olunan ANY.RUN, "Virustotal" kimi ödənişsiz platformalarda bir sıra bank və müəssisələrə aid çoxsaylı konfidensial məlumatların - sənədlər, müqavilələr, maliyyə və mülkiyyət faylları, CV-lər, hesabatlar və s. dərc olunduğunun şahidi ola bilərik. Belə platformaların fərdi qaydada istifadəsi kibergigiyena baxımından yoluxmanın qarşısının alınması məqsədilə çox təqdirəlayiq müsbət hal olsa da, bank və müəssisələrin və istifadəçilərin həssas məlumatlarının hər kəsə əlçatan açıq şəkildə paylaşılması böyük risk daşıyır", - deyə XRİTDX-nin Zərərvericilərin Tətqiqi Laboratoriyası müəssəsə və şirkətlərə bulud əsaslı "sandbox" platformalarından istifadə zamanı konfidensial və fərdi məlumatların mühafizəsini təmin etmək məqsədilə yoxlamaları qapalı analiz imkanlarına malik sistemlərdə aparmağı tövsiyə edir: "Bununla yanaşı bilmək lazımdır ki, bu kimi sistemlərə yüklənən fayllar bəzi platformalarda hər kəsə açıq şəkildə paylaşılmasa belə yüklənmiş fayllar 3-cü şəxslərin informasiya sistemində toplanır. Sözügedən sistemdə baş verə biləcək hər hansı kiberhücum nəticəsində həssas məlumatlar sızdırıla və ya hakerlərin əlinə keçə bilər. Bunu nəzərə alaraq, belə xidmətlərdən istifadə edərkən yüklənəcək fayllardan həssas məlumatları silmək və ya gizlətmək üçün məlumatların redaksiyasını və anonimləşdirilməsini təmin etmək vacibdir. Bununla yanaşı, müəssisə daxilində əməkdaşların məlumatların qorunması, məxfilik və informasiya təhlükəsizliyi baxımından məlumatlılığının artırılması məqsədilə mütəmadi olaraq əlavə maarifləndirici tədbirlərin həyata keçirilməsi müəssisədaxili kibergigiyenanın yüksəldilməsi baxımından əhəmiyyətlidir".

Məlumat üçün qeyd edək ki, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Zərərvericilərin Tətqiqi Laboratoriyası hazırda yeni həll olan milli "sandbox" sisteminin hazırlanması üzərində çalışmalarını davam etdirir.

# Ağdam Ağsaqqallar Şurasının konfransı keçirilib



**Ağdam Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilib. Konfransda rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, YAP Ağdam Rayon Təşkilatının sədri Mansur Quliyev, rayon Ağsaqqallar Şurasının üzvləri, idarə, müəssisə, təşkilatların rəhbərləri, ziyalılar iştirak etmişlər.**

Ulu Öndər Heydər Əliyevin mərkəzi meydandakı abidəsi ziyarət olunduqdan sonra Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Vaqif Həsənov və digər natiqlər ölkəmizdə ağsaqqallara və ahıl vətəndaşlara dövlətin diqqət və qayğısından, onların mədəni-ictimai həyatımızdakı rolundan danışmışlar.

Sonra rayon Ağsaqqallar Şurasının sədri Əvəz Mikayılovun şuranın fəaliyyəti ilə bağlı hesabat məruzəsi dinlənilmişdir. Konfransın sonunda rayon ağsaqqalları onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə etmişlər.

# Dini konfessiyaların nümayəndələri Tərtərdə olmuşlar



**Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri işğaldan azad edilən Suqovuşan qəsəbəsində və Talış kəndində səfərdə olublar. Səfər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə reallaşıb.**

Dini konfessiyaların nümayəndələri Pasxa bayramı münasibəti ilə Suqovuşan qəsəbəsindəki və Talış kəndindəki Alban məbədlərini ziyarət ediblər. Dini ayinlər icra olunub, bayram duaları oxunub. Talış kəndindəki məbədin həyətində bayram süfrəsi açılıb. Süfrəyə kuliç və digər bayram nemətləri düzülüb, mahnılar ifa olunub. Bayram tədbirində xristianlarla yanaşı, müsəlmanlar da iştirak ediblər.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov dini konfessiyaların nümayəndələri ilə görüşərək onlara rayon haqqında və Vətən müharibəsi zamanı Tərtərə dəymiş ziyanla bağlı ətraflı məlumat verib. Qeyd edib ki, Vətən müharibəsi zamanı Tərtər şəhərinə və onun yaşayış məntəqələrinə erməni terrorçuları tərəfindən 16277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atılıb. Nəticədə rayonun infrastrukturuna, yüzlərlə yaşayış evinə, sosial obyektlərinə, o cümlədən 12 körpələr evi-uşaq bağçasına, 16 ümumtəhsil məktəbinə, İlk Peşə İxtisas Məktəbinə, Gənclər Mərkəzinə, 10 tibb, 7 mədəniyyət müəssisəsinə, məscidə, inzibati binalara, nəqliyyat vasitələrinə, kənd təsərrüfatına ziyan dəyib, dağıntılar olub. 16 mülki şəxs həlak olub, o cümlədən şəhər qəbiristanlığının atəşə tutulması nəticəsində dəfndə iştirak edən 4 nəfər həyatını itirib.

Sonra qonaqlar Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər rayonuna müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə, Vətən müharibəsi zamanı rayona dəymiş ziyanı əks etdirən fotostentlərə baxıblar.

Milli Məclisin deputatı Sahib Alıyevin də iştirak etdiyi görüşdən sonra qonaqlara xatirə hədiyyələri təqdim olunub.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Tovuz kümçüləri bu il də bol məhsul götürmək əzmindədirlər

**Son illər rayonda baramaçılığa maraq xeyli artıb. Hər il bu sahədən yaxşı qazanc götürən kümçülər növbəti mövsüm daha çox barama qurdu götürür, ona yüksək səviyyədə qulluq göstərərək daha çox məhsul istehsalına nail olurlar.**



Keçən il 61 kümçü 150 qutu ipəkqurdu götürərək 4633 kiloqramdan çox yaş barama təhvil vermişlər. Artıq bir neçə gündür ki, builki barama mövsümünə də start verilmişdir. Kümçülər bu mövsümə ciddi hazırlıq işləri görmüşlər - barama saxlanacaq yerlər qaydaya salınmış, binalar zərərvericilərə qarşı dezinfeksiya edilmişdir.

Cari il rayonun 35 yaşayış məntəqəsində ipəkqurdu bəslənəcək. Kümçülər qarşılarına məqsəd qoymuşlar ki, bu il 6 ton barama istehsal etsinlər. Bunun üçün hər cür şəraitləri də var, ən başlıcası barama qurdlarının yemlənməsində elə bir çətinlikləri yoxdur. Rayon ərazisində istənilən qədər tut ağacı əkilib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# "Qarabağ uğrunda dastan yazan Göyçə mahalı - Kəsəmən kəndinin igidləri" kitabı nəşr edilib

**Filologiya elmləri doktoru Almaz Ülvi və Həqiqət Binnətovanın həmmüəllifliyi ilə "Qarabağ uğrunda dastan yazan Göyçə mahalı - Kəsəmən kəndinin igidləri" kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, kitabın müəllifləri Göyçə mahalının Kəsəmən kəndinin Qarabağ uğrunda canını qurban vermiş şəhid oğullarının və 44 günlük Vətən müharibəsi qəhrəmanlarının döyüş yolundan bəhs ediblər. Kitabda hadisələr belə bir ardıcıllıqla oxuculara təqdim olunur: 1990-cı il 20 Yanvardan başlayan faciəvi yol, I Qarabağ müharibəsi, Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi və nəhayət, 2020-ci il 8 Noyabr Zəfər bayramı.

Kitab Prezident İlham Əliyevin çıxışlarından götürülmüş epiqrafla açılır:




"Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpağımızdır. Biz qayıdacağıq! ... Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq. Üçtərəfli 10 noyabr Bəyanatında göstərilir: Bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə..."

Nəşrdə belə bir fikir vurğulanır ki, 1990-cı ilin 20 Yanvarında 20 yaşlı bir gəncin - Bünyadzadə Ülvi Yusif oğlunun "And"ını qəbul etmiş Vətən övladları Zəfər döyüşündən üzüağ çıxdılar.

Müəlliflər daha sonra bildirirlər: "Qarabağ uğrunda dastan yazan Göyçə mahalı - Kəsəmən kəndinin igidləri" adlı bu yaddaş kitabımız "Vətən simurqları" kitabına əlavədir. Əslində, burada nəşr olunan yazılar "Vətən simurqları" kitabında da yer alıb. Eyni zamanda belə bir yaddaş kitabı hazırlamağı özümüzə borc bildik. Müharibə bitəndən az sonra əsgər və zabitlərimiz Ali Baş Komandan tərəfindən orden və medallarla təltif edildi. Bu kitabı hazırlayarkən hələ oğullarımız cəbhədə idi, onlar cəbhədə ola-ola haqqında qeydləri toplayıb hazırlamışdıq, yəni kimin hansı orden və medalı aldığını o zaman bilmirdik deyə burada göstərilməyib. Bu yaddaş kitabının ikinci təkmilləşdirilmiş nəşrinə ehtiyac olarsa, o zaman onları əlavə edə bilərik. Hazırda isə düşündük ki, elə ən böyük orden-medal Qarabağın özüdür. Orden və medalların təsvirini kitabın sonunda vermişik, həmin illərin xatirəsi kimi. Qarabağdan sonra haqq yolumuzun davamı Göyçə, İrəvan, Zəngəzur, Zəngibasar, Dilican ...".

Kitabdakı "Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik!" misraları ilə başlayan "44 günün əfsanəsi" adlı irihəcmli yazıda vurğulanır ki, Qarabağı düşmən işğalından azad etmək üçün "Qarabağ Azərbaycandır və nida" gəncliyin 44 günlük mübarizə şüarı oldu.

# Fironun məzarının "öldürücü" sirri






**Misir tarixi hər zaman arxeoloq və alimlərin diqqət mərkəzində olub. Belə ki, bu ölkədə təkcə ehramlar deyil, həmçinin fironlarla bağlı da sirr və müəmmalar var. Vaxtilə günəşin elçiləri adlandırılan və Tanrıya bərabər tutulan fironların məzarlarının "mistik qüvvələr" tərəfindən mühafizə edilməsi iddiaları xüsusilə maraq doğurur. Belə sirli qəbirlərdən biri "Uşaq kral" adlandırılan firon Tutanxamona məxsusdur.**

Tutanxamonun məzarını tədqiqatçı və arxeoloqlar, eləcə də insanlar üçün maraqlı edən əsas səbəb onu ziyarət edənlərin qısa zamanda dünyasını dəyişməsidir. Uzun illər boyu buna ilahi qüvvələrin səbəb olduğu deyilsə də və Tutanxamonun lənəti adlandırılsa da, artıq onun elmi izahı müəyyənləşib.

## Qəsdən "lənətlənmiş" məzar

Misir fironu Tutanxamonun məzarı ilk dəfə 1922-ci ildə açılıb. Tarixdə aşkar edilmiş ən dəbdəbəli sərdabələrdən biri hesab edilən bu məzar qiymətli əşyalarla zəngin olub. Qədim misirlilər bu xəzinənin gənc fironun axirətə səyahətinə kömək edəcəyini düşünürdülər. Qəbrin divarında belə bir yazı var idi: "Fironun sakitliyini pozan hər kəsi ölüm addımbaaddım izləyəcək". Sərdabənin yanında isə üç nəfərin skeleti var idi. Onlar nə vaxtsa xəzinəni daşıyıb apara bilməmişdilər. Fironun dəfinəsi arasında qəribə bir əşya var idi. Bu əşya amulet idi və onun arxasında belə yazılmışdı: "Mən səhranın çağırışı ilə qəbri ləkələyənləri qaçmağa vadar edirəm. Mən firon Tutanhamomun sərdabəsinin keşiyində duranam".

20-dən çox insanın ölümünə səbəb olduğu güman edilən "Fironun lənəti"nin səbəbini alim Ross Felloves tapıb. Uzun illər aparılan tədqiqatlardan sonra məlum olub ki, onun elmi-kimyəvi açıqlaması var. Araşdırma nəticəsində müəyyən edilib ki, ölümlərə səbəb təhlükəsiz və təbii elementlərin içərisinə qəsdən yerləşdirilmiş zəhərli tullantıların yaratdığı radiasiya zəhərlənməsidir. Yəni məzar hamının düşündüyü kimi fövqəltəbii deyil, qəsdən "lənətlənib".

İndiyə qədər bir çox alim və tibb elminin nümayəndələri də buna bənzər fikirlər səsləndirmişlər. Onların fikrincə, arxeoloji ekspedisiya üzvlərinin ölümünə səbəb xüsusi növ göbələyin dağıdıcı təsiridir. Bu tip göbələklərin sporları fironların sərdabələrində əsrlər boyu "konservləşdirilmiş" formada qalıb.

1962-ci ilin noyabrında Qahirə universitetinin alimi Din Taxa bildirib ki, ehramların daxili sahələrində işləyən hər bir tədqiqatçı və ya fəhlədə nəfəs yollarının iltihabına səbəb olan virus tapılıb. D.Taxa mumiyanı incələyəndə bir sıra analoji viruslarla qarşılaşıb. Alimin fikrincə, bu viruslardan hər biri həyat qabiliyyətini 4 min il qoruyub saxlaya bilir.

Digər mütəxəssislər isə R.Felloves kimi düşünüblər, onlar bu qənaətə gəliblər ki, qədim misirlilər qəbrin açılmasına qarşı naməlum toksinlərdən və radioaktiv maddələrdən istifadə ediblər. 1948-ci ildə atom sahəsi üzrə alim Luis Bul mətbuat konfransında deyib: "Düşünürəm ki, Qədim Misirin kahinlərinə uranın xüsusiyyətləri məlum idi. Görünür, radiasiya məbəd və sərdabələrin qorunması üçün etibarlı vasitə olub. Mumyalama prosesində istifadə edilən qətran Qırmızı dənizin sahillərindən və Kiçik Asiyanın bəzi rayonlarından gətirilibdi. Bu qətranın tərkibində yüksək miqdarda radioaktiv maddələr olubdu. Bundan başqa, mumyaları sarıdıqları bintlər də radiasiya mənbəyidir. Çox güman ki, yeraltı kameralarda yığılıb qalan toz da şüalanmaya səbəb olub".

## Tutanxamonun sərdabəsində olanların acı taleyi

Sərdabədə olan kimyəvi maddələr Tutanxamonun məzarını ilk dəfə tapan arxeoloq Hovard Karterin həyatına son qoyan xərçəng kimi xəstəliklərə səbəb olur. H.Karter 1939-cu ildə immun sisteminə təsir edən Hodgkin lenfoma ilə uzun müddət mübarizə apardıqdan sonra infarktdan vəfat edib. İndi isə xərçəngin səbəbinin radiasiya zəhərlənməsi olduğu bildirilir. Tutanxamonun məzarının açılmasına kömək edən Karnarvon qrafı Corc Herbert de Karnarvon da kəşfdən 5 ay sonra qan zəhərlənməsindən vəfat edib. Karnarvonun oğlu isə deyib ki, ekspedisiya zamanı onun iti ulamağa başlayıb və qəfil ölüb.



Tezliklə Lordun qardaşı və qulluqçusu da Qahirədə vəfat edib. Bir neçə ay sonra ekspedisiyanın üzvləri olan Artur Meys və Corc Cey-Qold dünyalarını dəyişiblər. A.Meys Karterə sərdabəni açmağa kömək etmişdi. Məhz o, əsas kameraya girişi bağlayan sonuncu daşı kənara çəkmişdi. Karnarvonun ölümündən sonra o, qeyri-adi yorğunluqdan şikayət etməyə başlamış, tədricən yaddaşını itirmişdi. Corc Cey-Qold isə Lord Karnarvonun köhnə dostu və arxeologiyaya həvəs göstərən şəxs idi. O, Tutanhamonun sərdabəsini diqqətlə incələyib, tapılan hər bir əşyaya bir-bir toxunmuşdu. Növbəti gün Cey-Qold titrəməyə, tez-tez huşunu itirməyə başlamış və axşam saatlarında keçinmişdi. Ölüm ardınca ölüm gəlirdi. Ekspedisiyanın digər üzvləri də ölməyə başlamışdılar. Simptomlar isə eyni idi: qızdırma, titrəmə və huşunu itirmə. Bir neçə ay ərzində 22 nəfər dünyasını dəyişmişdi. Onlardan bəziləri Tutanhamonun sərdabəsində olmuş, bəziləri isə mumiyanı tədqiq etmişdilər.

1929-cu ildə Lord Karnarvonun dul arvadı da güvə dişlədiyi üçün dünyasını dəyişmişdi. Eyni gündə səhər saatlarında H.Karterin katibi Riçard Batell ürək tutmasından vəfat etmişdi. Bu zaman London və Qahirədə Tutanxamonun lənəti barədə dəhşət və qorxu dolu şayiələr dolaşmağa başlamışdı.

R.Batellin ölümü barədə xəbər Qahirədən Londona çatanda onun atası, lord Uestbyuri özünü hotelin 7-ci mərtəbəsinin pəncərəsindən atmışdı. Lordun nəşini dəfn etmək üçün aparanda tabutu daşıyan maşın küçədə oynayan körpəni öldürmüşdü. Ekspertiza göstərmişdi ki, sürücü oğlanı görməyə bilməzdi. Çünki hadisə yerinə qədər 150 metr var idi. Amma sürücü və hadisə şahidləri əmin idilər ki, küçə boş idi...

## Tutanxamon kimdir?

Tutanxamon eramızdan əvvəl 18-ci sülalənin 12-ci fironu olan və Misirin Yeni Krallığı dövründə hökmranlıq edən firon olub. Hökmdarın nə vaxt doğulduğu tarix dəqiq bilinməsə də, onun təxminən eramızdan əvvəl 1341-ci ildə anadan olduğu təxmin edilir. O, çox gənc yaşda, təxminən eramızdan əvvəl 1332-ci ildə taxta çıxıb.

Əldə edilən faktlara görə, Tutanxamonun atası firon Exnatondur. Anasının kimliyi isə dəqiq məlum deyil. Bir neçə dəfə aparılan genetik tədqiqatlar təsdiqləyib ki, Tutanxamon qan qohumluğu olan insanların izdivacından doğulub.

9 il hakimiyyətdə olan Tutanxamonun bütün həyat hekayəsi sarkofaqa yazılıb və digər mənbələrlə də təsdiqlənib. Bu mənbələr Misir ərazisində aparılan müxtəlif arxeoloji qazıntılar nəticəsində tapılıb. Əvvəllər 19 yaşında vəfat edən fironun qətlə yetirildiyi düşünülürdü. Tutanxamonun ənsə nahiyyəsində aşkarlanmış zədəli sümük fraqmentləri zorakılıq fərziyəsini irəli sürsə də, texnologiyanın inkişafı tədqiqatçılara fironun qalıqları üzərində incələmə aparmağa imkan verib və KT müayinəsi fironun öldürülməsini təsdiqləməyib. Ənsə nahiyyəsindəki zədə mumyalama zamanı kəlləni beyindən azad etmək üçün məqsədli şəkildə icra edilmiş primitiv trepanasiya ilə əlaqələndirilir. Tutanxamonun kohlerdən (sümük xəstəliyindən) vəfat etdiyi aydınlaşıb. Bu xəstəlikdən Exnatonun da əziyyət çəkdiyi təxmin edilib.

Tutanxamonun mumiyalanmış bədəni zamanəmizə qədər heç bir zədə almadan gəlib çatıb. Hazırda onun cəsədi Misirdə Fironlar vadisi Luksorda şüşə sərdabədə saxlanılır. Fironun məzarında aşkar edilən qiymətli əşyalar Qahirədəki Misirşünaslıq muzeyində sərgilənir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





**● Azərbaycanın mədəniyyət paytaxtı**

# Məğrur, qürurlu Şuşa

**Otuz ilə yaxın Azərbaycan xalqının səbirsizliklə, həsrətlə gözlədiyi günlər gəldi. 2020-ci ilin payızında, qırx dörd günlük İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusunun zəfəri bizə qalib xalq olmağın sevincini və qürurunu gətirdi.**




Ancaq azadlığına qovuşmuş ərazilərdə xalqımızın qarşılaşdığı mənzərələr dəhşətli idi. Qarabağın, Şərqi Zəngəzurun bütün əraziləri Ermənistanın işğalı dövründə vandalizmə məruz qalmışdı. İşğalçıların on illər boyu vurduqları maddi və mənəvi zərərin həddi-hesabı yox idi. Təcavüzkar, vandal ermənilər həmin ərazilərdə istər müasir, istərsə də qədim tikililəri uçurub dağıtmışdılar. Azərbaycanın ölkə və dünya əhəmiyyətli tarixi abidələri təcavüzkar ermənilər tərəfindən ya məhv, ya da təhrif edilmişdi. İşğalçılar Qarabağın, Şərqi Zəngəzurun dünyaca məşhur təbiət gözəlliklərinə də qıymışdılar.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyev işğaldan azad edilmiş əzəli ərazilərimzdə həyata keçiriləcək geniş və sürətli tikinti-quruculuq, abadlıq işlərinin müjdəsini verdi.

2021-ci ilin yanvarında dövlət başçısı İlham Əliyevin Azərbaycan xalqına verdiyi xoş xəbərlərdən biri də bu oldu: "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq eyni zamanda tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir".

Ermənistan 1992-ci il mayın 8-də ələ keçirdiyi, otuz ilə yaxın işğal altında saxladığı Şuşa şəhərində də xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdi.

Qəhrəman Azərbaycan Ordusu 2020-ci il noyabrın 8-də işğaldan azad etdiyi bu qədim şəhərə, onun təbiətinə və tarixi-mədəni irsinə işğalçıların vurduğu zərərin aradan qaldırılması, Şuşanın işğaldan əvvəlki görkəminə qaytarılması və daha da inkişaf etdirilməsi məqsədilə bərpa-quruculuq işlərinə başlanıldı.

Yalnız Şuşa şəhərinin deyil, bütövlükdə Azərbaycanın tarixində daha bir əlamətdar hadisə Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamı oldu. Bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir: "Bu baxımdan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır". Sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir.

İlboyu hər bir azərbaycanlı üçün müqəddəs məkanda - Şuşada bir-birindən maraqlı və əhəmiyyətli tədbirlər keçirildi, Şuşa şəhərinin baş planı təqdim olundu.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə iyirmi doqquz il sonra - 2021-ci il mayın 12-13-də "Xarıbülbül" Musiqi Festivalı yenidən düzənləndi. Bu möhtəşəm tədbir vətən torpaqlarının azadlığı uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə həsr edildi. Beləliklə, xarıbülbül Qarabağın azadlıq rəmzinə çevrildi.

2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərinə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan səfər etdi. İki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisə oldu.

Azərbaycanın görkəmli şairi və ictimai xadimi Molla Pənah Vaqifin məqbərəsi də işğal dövründə dağıdılmışdı. Zəfərdən sonra 2021-ci il avqustun 29-da Şuşada muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu, şairin öz evinin yerindəki büstü yenidən ucaldıldı.

İlk dəfə 1982-ci ildə keçirildikdən sonra ənənəyə çevrilmiş, ancaq Ermənistanın işğalı ilə yarımçıq qalmış Vaqif Poeziya Günləri Şuşa azad edildikdən sonra, 2021-ci il avqustun 30-da yenidən təşkil olundu.

Qeyd edək ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada ucaldılmış heykəli 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı tamamilə dağıdılmışdı. Azərbaycanın mədəniyyət paytaxtında Üzeyir bəyin heykəli öz əvvəlki yerində ucaldıldı. 2021-ci il sentyabrın 18-də isə ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**● Maraqlı insanlar, maraqlı talelər**

# Həyatı filmə bənzəyən aktyor

**Həyatı da yaratdığı obrazlar kimi rəngarəng idi… Uşaqlığı ermənilərin qırğınlar törətdiyi illərə təsadüf edir. Ömrünün gözəl çağları, gənclik illəri yaddaşında daha çox Birinci Dünya müharibəsi, ermənilərin Naxçıvanda törətdiyi amansız qırğınlarla və Azərbaycan Demokratik Respublikasının yaranması ilə qalır.**



Sovet hökuməti insanlara xoşbəxtlik vəd etsə də, daha çox bədbəxtlik gətirmişdi. Amansız repressiya maşını dəyirman kimi xalqın ziyalılarını, düşünən beyinləri üyütməklə məşğul idi. Bəlalar bitib tükənmək bilmirdi…

Repressiyalar səngimək üzrə idi ki, İkinci Dünya müharibəsi qapını döydü. Elə bir zaman idi ki, ağı qaradan seçmək olmurdu. Yaşamaq da, yaratmaq da çətin idi. O isə həm yaşamağı, həm də yaratmağı bacardı. Adını Azərbaycanın kino, teatr mədəniyyəti tarixinə əbədi olaraq yazdı. Söhbət Azərbaycanın teatr və kino sənətinin inkişafında müstəsna xidmətləri olan, genişmiqyaslı rejissorluq və aktyorluq fəaliyyəti ilə sənət tariximizin parlaq səhifələrini yaradan Xalq artisti Rza Təhmasibdən gedir.

Rza Təhmasib 1894-cü il aprelin 20-də Naxçıvanda sayılıb-seçilən tacir Abbasqulu bəyin ailəsində dünyaya gəlib. 1901-ci ildə o, Məmmədtağı Sidqinin açdığı "Məktəbi-tərbiyə"də dərs alıb. Məktəbdə rus, ərəb, fars dilləri, tarix və coğrafiya fənlərini öyrənib. Beş il sonra "Məktəbi-tərbiyə"ni bitirərək üçsinifli Naxçıvan şəhər məktəbində oxuyub.

Atasının istəyi ilə Tiflisdə ticarət məktəbinə qəbul olunsa da, ticarəti yox, incəsənəti seçib. 16 yaşında ikən Tbilisidə "Müsəlman Artistləri İttifaqı"nın teatr truppasında fəaliyyətə başlayan gənc 1920-ci ilədək Tbilisi, İrəvan, Naxçıvan teatrlarında aktyorluq və rejissorluq edib. 1920-ci ildən isə Təhmasibin yaradıcılığı Azərbaycan Dövlət Dram Teatrı ilə bağlı olub.

Sovet hakimiyyəti qurulduqdan sonra, 1921-ci ildə Türkiyəyə getmək, diplomatik nümayəndəlikdə tərcüməçi vəzifəsində çalışmaq təklifini alır. Bu təklifi dəyərləndirən Rza Təhmasib 1921-ci ilin sentyabr ayının əvvəllərində Tiflisdən Batuma yola düşür. Batumdan İtaliyanın "Reno" gəmisi ilə Türkiyəyə gedən 28 nəfərlik Azərbaycan nümayəndə heyətinin tərkibində Rza Təhmasib də olur. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan "Azərbaycan SSR-in Ankaradakı səlahiyyətli nümayəndəliyinin tərkibi və onların aylıq əməkhaqqı cədvəli" adlı sənəddə göstərilir ki, Rza Təhmasib o zaman Azərbaycan nümayəndəliyinin İnformasiya şöbəsinin iki əməkdaşından biri olmuşdur.

Onun Azərbaycan və Türkiyə tarixinin çətin bir dövründə diplomatik nümayəndəliyin fəaliyyətinə cəlb olunması bir tərəfdən geniş dünyagörüşə, əhali arasında xüsusi nüfuza sahib olması idisə, digər tərəfdən isə rus, ərəb, fars və türk dillərini mükəmməl bilməsiydi.

1922-1924-cü illərdə Azərbaycan Dövlət Dram Teatrında bədii rəhbər, 1937-1938-ci və 1953-1959-cu illərdə isə direktor kimi fəaliyyət göstərib.

Rejissorluq fəaliyyəti haqqında danışarkən "İlk uğurlu rejissor işim üçün "Ölülər" pyesinə minnətdaram" deyən Rza Təhmasibin istər doğma Naxçıvanda, istərsə də Bakıda səhnəyə qoyduğu əsərləri ilə teatr sənətimizn inkişafına göstərdiyi müstəsna xidmətləri danılmazdır. Qoqolun "Ölü canlar"ının, Mirzə Cəlilin "Ölülər"inin teatra gəlişi Rza Təhmasibin adı ilə bağlıdır.

Rza Təhmasibin sənətə gəldiyi dövr Azərbaycan kinosunun yenicə yaranmağa başladığı bir ərəfəyə təsadüf edirdi. Bu böyük sənətkar 1937-ci ildə Ümumittifaq Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsini bitirmiş və elə həmin il də Bakı studiyasında "Ordenli Azərbaycan" sənədli filmini çəkmişdi.

"Səbuhi", "Mahnı belə yaranır", "Bakının işıqları" filmlərini çəkən rejissorlardan biri də Rza Təhmasib olub. Qardaşı Məmmədhüseyn Təhmasiblə birgə çəkdiyi "Onu bağışlamaq olarmı?" filmi bu gün də milli kinomuzun ən dəyərli incilərindən hesab edilir.

Tamaşaçıların yaddaşına adını "Qanun naminə" filmində yaratdığı Qaloşlu adam obrazı ilə yazan aktyor "Almaz", "Bakıda küləklər əsir", "Fətəli xan" və digər ekran əsərlərində də bir-birindən fərqli, maraqlı obrazlar canlandırıb.

Teatr tariximizdə dünya və Azərbaycan ədəbiyyatının elə bir klassik nümunəsi yoxdur ki, Rza Təhmasibin aktyor və rejissor kimi bu tamaşalarda zəhməti olmasın. Onun yaradıcılığı epoxasında aktyor kimi yaratdığı İsgəndər ("Ölülər"), İblis və Arif ("İblis"), Şeyx Sənan ("Şeyx Sənan"), Qacar ("Ağa Məhəmməd Şah Qacar"), Süleyman ("Həyat"), Koşkin ("Lyubov Yarovaya"), Strijin ("Eskadranın məhvi"), Karl Moor ("Qaçaqlar") kimi rollar klassik teatrımızın ən layiqli sənət nümunələrindən olmuşdur.

Ömrünün son illərini pedaqoji fəaliyyətə həsr edən Rza Təhmasib Azərbaycanda yeni rejissor və aktyor nəslinin yetişməsində mühüm və əhəmiyyətli rol oynamışdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## "Circus Sea Breeze" arenasında beynəlxalq sirk proqramı təqdim ediləcək




**"Circus Sea Breeze" arenasında "Monte-Karlo əfsanələri" adlı beynəlxalq sirk proqramı təqdim ediləcək.**

İyunun 1-dən etibarən "Circus Sea Breeze" ərazisində yerləşən Lunaparkda və Akvaparkda "Monte-Karlo əfsanələri" adlı beynəlxalq sirk proqramı yeni mövsümünü açır. "Circus Sea Breeze" arenasına sirk "Oskar"ı mükafatının laureatı Allahverdi İsrafilovun rəhbərliyi altında ilk dəfə bu il yarıməsrlik yubileyini qeyd edən məşhur festivalın artistləri çıxacaq.

Rəngarəng sirk şousu Monte-Karlonun əsl əfsanələrinin məharətlərini nümayiş etdirəcək, həmçinin heyrətamiz akrobatik tryuklar, virtuoz hoqqaların sehri və nəfəs kəsən hava tamaşaları göstəriləcək. Arenada baş verənlər tamaşaçıları tarazlıq hərəkətləri dünyasının cazibəsinə aparacaq.

Azadlıq ruhunun təcəssümünə çevrilmiş Qarabağ atlarının gözəlliyi və zərifliyi əsl igidlərin idarə etdiyi orijinal şouda təqdim olunacaq. İlk tamaşa xeyriyyə xarakterli olacaq.

**5 May Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günüdür**

## Milli Kitabxanada sərgi açılıb

**Milli Kitabxanada "5 May - Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub. Kitabxanadan bildirilib ki, virtual sərgidə fotolar, mövzu ilə əlaqəli kitablar və dövri mətbuat səhifələrində dərc olunan materiallar nümayiş olunur.**

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qərarı ilə 1992-ci ildən etibarən hər il 5 May bütün dünyada Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunmasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq, bu kateqoriyadan olan insanların cəmiyyətə inteqrasiyasını gücləndirməkdir.

**● 5 May Xalçaçı Günüdür**

# Anamın gözünün nuru, əlinin sığalı hopmuş xalça

**Hər xalqın, hər millətin milli ənənələrini, mənəvi dəyərlərini özündə əks etdirən nümunələri var. Azərbaycanda da milli bəzək ornamentlərini özündə əks etdirən nümunələr çoxdur. Həmin ornamentlərə xalça və xalça məmulatlarında, tikmə, zərgərlik, şəbəkə işlərində, kaşı və silahlarda, eləcə də tətbiqi sənətin digər növlərində sadə və mürəkkəb formada rast gəlinir.**



Xalça mənim uşaqlığımın işıqlı yaddaşının əlvan boyalarıdır. Ötən əsrin 70-ci illərində anam evimizdə xana qurub xalça toxuyurdu. Bəzən mən də yanında oturub ilmə vururdum. Onun əllərinə baxıb vurduğum ilmələr xalçadakı al-əlvan naxışların içində kobudluğu ilə seçilirdi. Anam həmin ilmələri söküb yenisini vururdu. İlmələrimi sökdüyünə görə ağladığım zamanlar da olurdu. Amma sonralar anladım ki, naşı əlində vurulmuş ilmə xalçada yamaq kimi görünür.

İndi həmin xalçalardan biri evimdədir, ailə quranda anam cehiz verib. O xalça evimin ən dəyərli əşyasıdır. Hərdən xalçaya baxanda ixtiyarsız uşaqlığıma dönürəm. Üzərində həkk olunmuş bir-birindən maraqlı təsvirlər, al-əlvan rəngli iplərdən ərsəyə gəlmiş milli ornamentlər və bunun kimi saymaqla bitib-tükənməyən digər naxışlar o illərin ruhunu xatırladır mənə. Bir anlıq düşüncələrimin qanadında keçmişə səyahət edirəm. Tamam fərqli bir hissin eyforiyasına qapılır, fərqli duyğulara köklənirəm. Anamın min zəhmətlə, böyük səbirlə, təmkin və zövqlə ərsəyə gətirdiyi başqa xalçaları da olub. Əminəm ki, indi o xalçalar hansı evdədirsə, oraya da xüsusi gözəllik və yaraşıq verir.

Milli mədəniyyətimizin ayrılmaz hissəsi olan xalçaçılıq Azərbaycan xalqının əsrlərlə yaratdığı, qoruyub saxladığı, nəsildən-nəslə ötürdüyü sənət növüdür. Xalça toxumaq xalçaçının ruh aləminə səyahətidir. Onun al-əlvan ilmələrlə vurduğu naxışlar hiss və duyğularının ahəngindən yaranmış bir çələngdir. Bu əlvanlıq ən zəngin dəyər kimi yüz illərdir ilmələrdə yaşayır. Bizim xalçaların çeşnisi, çeşidi, rəngarəngliyi dünyanın başqa xalqlarının xalçalarında əks olunmayıb. İranda, Əfqanıstanda. Mərkəzi Asiyada da xalça toxumaq geniş yayılıb. Onların toxuculuq sənətində daha çox gül, yarpaq, budaq kimi təbiət formalarından ibarət olan nəbati naxışlar diqqət çəkir. Bizim xalçalarda isə kainat haqqında təsəvvürlər, astronomiya ilə bağlı həndəsi elementlər üstünlük təşkil edir.

Xalçanı yaratmaq azdır, onu yaşatmaq və araşdırmaq əsasdır. Məhz bu prinsipə söykənən Azərbaycan Xalça Muzeyi dünyada bu qəbildən yaradılan ilk muzeydir. Vaxtilə İçərişəhərdə yerləşən "Cümə" məscidində olmuş muzey indi bükülmüş xalçanı xatırladan yeni binada fəaliyyət göstərir.

Yüzilliklərin o tayından boylanan Azərbaycan xalçası ümumbəşəri mədəniyyətlə zənginləşərək dünya dəyərləri sırasında öncül yerlərdən birində bərqərar olub - 2010-cu ildən UNESCO-nun Qeyri-maddi mədəni irsin reprezentativ siyahısına daxildir. Onu da qeyd edək ki, bu məsələdə Birinci vitse-prezient, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva anaların əl əməyindən, göz nurundan, duyğularından, yaşantılarından başlayan, Vətən tarixinin şahidi, yol yoldaşı olan Azərbaycan xalçaçılıq məktəbinin hamisidir. Bu, bəlkə də təsadüfi deyil, mənsub olduğu ailə ilə birbaşa bağlılıqdan irəli gələn haldır. Babası, görkəmli yazıçı Mircəlal Paşayevin "Bir gəncin manifesti" əsərində toxuduğu xalçanı ehtiyac üzündən bazara çıxaran Sona xanım onu ingilisə satmır, "İtə ataram, yada satmaram" deyərək milli qürurunu alçaltmır. Yazıçı Azərbaycan anasının obrazını qədim və ənənəvi sənət növü olan xalçaçılıqla dolğunlaşdıraraq, onun cəsarətini və qürurunu bu yolla ön plana çəkib yaddaşlarda əbədi həkk edib. Nəvəsi isə Azərbaycan xalçasını yerdən göylərə qaldırıb.

Analarımızın toxuduğu xalçalar özünün simvol zənginliyi ilə digər məişət əşyalarından fərqlənir. Çünki hər naxışın öz adı, öz mənası var. Anam xalça toxuyarkən dünyanı necə gördüyünü, el-obanın həyat tərzini çeşnilərdə simvolların şərti dili ilə həkk edirdi. Mənə elə gəlir ki, onun naxış elementləri təbiətdəki bitkidə, quşda, heyvanda belə mövcud deyil. Anam deyirdi ki, xalçanın ruhu onun naxışında və rəngindədir. Rənglərin ruhu ilə naxışların rəqsindən yaranan ahəng Azərbaycan xalçalarında simvol və işarələr dünyasının təsvir dilidir. Həmin işarə və təsvirlər ta qədimdən bu günə kimi yol gələn Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəblərində əks olunaraq xalçanı bəzəyən haşiyə və zolaqlardan ibarət kompozisiyanı tamamlayır. Həmin kompozisiyanın əsas elementləri heyvan, quş və bitki təsvirləridir. Bu təsvirlərdən hər məktəb özünəməxsus istifadə edir. Anamın toxuduğu xalçalarda Gəncə xalçaçılıq məktəbinin elementlərini özündə əks etdirən sürməyi göy, lalə və zoğalı qırmızı rənglər üstünlk təşkil edirdi. Seyrək ilmələri olsa da, bədii xüsusiyyətləri ilə seçilir və qalın olurdu. Ona görə də anamın əlinin sığalı, gözlərinin nuru ilə ərsəyə gələn, ortasında səkkizbucaqlı, dörd tərəfində isə sıra ilə düzülmüş medalyonu xatırladan həndəsi təsvirli, əriş-arğacı təbii boyalı yundan olan cehizlik xalçam 35 ildir rəngini və qalınlığını itirməyib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Səttar Bəhlulzadənin 115 illiyi ilə əlaqədar uşaqlar arasında rəsm sərgisi başa çatıb



**Xalq rəssamı Səttar Bəhlulzadənin 115 illiyinə həsr olunan "Səttar Bəhlulzadə yaradıcılığı uşaqların gözü ilə" rəsm sərgisi başa çatıb.**

Sərgi S.Bəhlulzadənin ev-muzeyi və 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

Sərgidə mərkəzin "Dekorativ rəsm" dərnəyinin üzvlərinin Səttar Bəhlulzadə yaradıcılığına həsr olunmuş mənzərə, natürmort, portret janrında çəkdikləri 13 rəsm işi nümayiş olunub.

Muzeyin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Pərzad Abdinova qonaqları salamlayaraq sərginin görkəmli fırça ustasının 115 illiyi ilə əlaqədar il ərzində keçiriləcək tədbirlər silsiləsindən biri olduğunu qeyd edib, ustad rəssamın yaradıcılığının hər zaman uşaqlar üçün örnək olduğunu vurğulayıb.

Dərnəyin rəhbəri Aytən Bəylərzadə çıxış edərək gənc rəssamların sərgiyə hazırlıq prosesi və iştirakından danışıb.

## "ANİMAFİLM festivalı regionlarda" layihəsi davam edir

**Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə "ANİMAFİLM festivalı regionlarda" layihəsi çərçivəsində növbəti tədbir mayın 16-17-də Lənkəranda təşkil olunacaq.**




Assosiasiyadan bildirilib ki, layihə regionlarda animasiya kinosu və sənayesinin inkişafının təşviqi məqsədilə keçirilir.

"ANİMAFİLM Lənkəranda" adlı tədbirdə uşaqlar və böyüklər üçün yerli və xarici animasiya filmlərinin nümayişləri, müzakirələr və səsvermə nəzərdə tutulub. Həmçinin tədbir çərçivəsində ikigünlük animasiya təlimi keçiriləcək. Tədbirdə iştirak ödənişsizdir, proqramı isə www.anima.az rəsmi saytında dərc olunacaq.





# Məhəmməd Füzuli - 530

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*



● Klassik irsimiz

**Dünyada Füzulini ən çox sevən və ən yaxşı anlayan avropalı tədqiqatçı alimlərdən biri olan ingilis şərqşünası Gibbin sözləriylə desək, XVI yüzildə Bağdad göylərində bir günəş doğdu. Bu, üç dildə ölməz əsərlər yaradan Məhəmməd Füzuli günəşi idi. Özü də elə bir günəş ki, gur şəfəqlərini getdikcə Azərbaycan-türk dili başa düşülən bütün ölkələrə, məmləkətlərə saçdı. 530 ildir ki, çeşidli qitə və iqlimlərdə yaşayan milyonlarla insan istilik və hərarəti bir an da azalmayan bu günəşin şəfəqlərindən qızınır, işığından nurlanır, gözəlliyindən zövq alırlar.**

**Orta çağlardan üzü bəri bütün anadilli ədəbiyyatımızın ən yüksək zirvəsi, doğma dilimizi ilk dəfə ərəb və fars dilləriylə yanaşı dura biləcək poeziya dili səviyyəsinə qaldıran, həqiqətən, Füzuli şeiriyyətidir. Türk dilinin fonetik-leksik qanunlarına və ruhuna yad olan əruz vəzni ilə "barışmasında", daha doğrusu, türk dilinin əruz vəzninə uyğunlaşdırılmasında da Füzuli bütün bacarıq və istedadını sərf etmiş, əsl ustadlıq göstərmişdir. İslam dini və mədəniyyətinin yayılmasında türk hökmdar və sultanlarının qılınc gücünə gördükləri işləri Füzuli öz qələmiylə görmüş, "pəhləvan" qüdrətli sözləriylə dünyanı tutmağa nail olmuşdur.**



# "Şərq şairlərinin günəşi"

Məhəmməd Füzulinin doğum tarixi 1494-cü il qəbul edilib. Atası Süleyman kişi mənşəcə Azərbaycandan olub, sonralar öz elatıyla İraqa köçüb Bağdad civarında yerləşən Azərbaycan türklərindən biri idi. Hətta Füzulinin uşaq yaşlarında öz ailəsiylə oraya köç etdiyini ehtimal edənlər də olmuşdur. Təsadüf deyil ki, böyük şair əsərlərində yeri gəldikcə özünü "qərib" adlandırmış, ömrüboyu vətən həsrəti, doğma yurd nisgilindən şikayətlənmişdir.

Dövrünün ziyalı və mədəni adamlarından olan Süleyman kişi oğlu Məhəmmədə yaxşı təhsil vermək üçün əlindən gələni etmiş, savadlı müəllimlər tutmuş, onun oxuması üçün hər bir şəraiti yaratmışdır. Şairin atasının Hillədə müfti olması fikri bəzi kitablarda yer alsa da, tarixi faktlarla sübut olunmur. Məhəmmədin uşaqlıq və gənclik illəri Kərbəla, Nəcəf, Hillə və Bağdad kimi şəhərlərdə keçmiş, təhsilini də elə bu şəhərlərdə tamamlamışdır. Uşaqlıqdan elmə və biliyə böyük həvəs göstərən Məhəmməd dövrünün bir çox elmini - dil, ədəbiyyat, məntiq, fəlsəfə, tibb, riyaziyyat, astronomiya, nücum, fiqh və b. mükəmməl öyrənir. Bu, gələcəkdə böyük şairin ölməz əsərlərində bədii formada - çeşidli məcaz və təşbehlər geyimində verdiyi bilgi və məlumat bolluğu şəklində özünü göstərəcəkdi. Bəzi rəvayətlərə görə, ədəbiyyat müəllimi dövrünün tanınmış şairi Həbibi, ərəb dili müəllimi isə Xacə Rəhmətullah əfəndi olmuşdir. Deyilənə görə, gənc Füzuli müəllimi Xacə Rəhmətullahın qızına dəlicəsinə vurulmuş, ancaq ilk məhəbbəti uğursuz olmuşdur. Gəncliyində ilk sarsıdıcı mənəvi zərbə alan Füzulinin gələcəkdə ürəkləri sızladan, yandırıb-yaxıcı lirik-aşiqanə qəzəllər yazmasında bu əzablı sevgi böhranı da öz rolunu oynamışdır. Hətta ölməz məhəbbət dastanı - "Leyli və Məcnun"da şairin özünün iztirab dolu qarşılıqsız məhəbbət macərasını təsvir etdiyini deyənlər də vardır.

Gənc Məhəmmədin çox erkən yaşlarından yaradıcılığa başladığını, tez də məşhurlaşdığını öz sözlərindən öyrənirik:

*Seyti-fəsahət ilə sözüm tutdu aləmi,*
*Mən məhdi-etibardə tifli-zəbun hənuz.*
*Buyi-xoşumla oldu müəttər dimağlər,*
*Mən nafeyi-vücuddə bir qətrə xun hənuz.*

Ancaq özünü bütünlüklə bədii yaradıcılığa həsr etməzdən öncə artıq qeyd etdiyimiz kimi, ozamankı bütün elmləri oxuyub mənimsəmişdir. Eyni zamanda, öz doğma dilindən başqa, ərəb və fars dillərini də o dillərdə gözəl şeirlər yazacaq səviyyədə öyrənməsi və yalnız bundan sonra "ilhamının köhlən atına" geniş meydan verməsini də dahi sənətkar dibaçədə xüsusi vurğulayır.

Gənc yaşlarında keçirdiyi faciəvi sevgi böhranından özünə gələn Füzuli sonralar əsl müsəlman kişisi kimi ailə həyatı qurmuş, ev-eşik sahibi olmuşdur. Fars dilində qələmə aldığı bir qəzəlində özünün toy gecəsini təsvir etdiyi ehtimal olunur:

*Vəslin mənə novruz gecəsi oldu müyəssər,*
*Sanki o gecəm gündüz ilə oldu bərabər.*

Ümumiyyətlə, şair ailəni cəmiyyətin əsas dayaqlarından saymış, islamda ailə məsələləri və prinsiplərinə böyük hörmətlə yanaşmışdır. Bunu "Rind və Zahid" əsərində ata Zahidin oğlu Rində verdiyi məsləhətlərdən də aydın görmək olur. Şairin bu evlilikdən doğulan yeganə oğlu Fəzli dövrünün görkəmli ziyalılarından olmuş, hətta şair kimi tanınmış, daha çox müəmma və "maddeyi-tarix"lər yazmışdır.

Füzuli çox çətin və ziddiyyətli bir dövrdə yazıb-yaratmışdır. O, üç fərqli hökmdarın hakimiyyəti altında yaşamış, hakimiyyət dəyişikliklərinin sadə xalqın həyatında heç bir yaxşılaşma yaratmadığını, əksinə, insanların güzəranını daha da pisləşdirdiyini gözləriylə görmüş, əsərlərində yeri gəldikcə bu məsələlərə əsl demokratik mövqedən öz münasibətini bildirmişdir. Şairin uşaqlıq çağı Ağqoyunluların hakimiyyəti dövründə keçmiş, bir şair və ziyalı kimi məşhurlaşması Səfəvilərin hökmranlıq illərinə düşmüş, yetkin və qoca yaşlarında Osmanlı imperiyasının təbəəsi olmuşdur.

İlk irihəcmli əsəri - "Bəng və Badə" ("Tiryək və Şərab") poemasını Səfəvi hökmdarı şah İsmayıl Xətaiyə həsr etmişdir. Bəzi Səfəvi hakim və əmirlərinə qəsidələr də yazmışdır. 1534-cü ildə Bağdadı alan Osmanlı imperatoru Sultan Süleyman Qanuninin özünə, Ayas paşa, Cəfər bəy, Mustafa Çələbi və Veys bəy kimi Osmanlı vali və bəylərinə daha çox qəsidə və məktublar yazmışdır. Bəzi mənbələrə görə, Bağdada gələn Sultan Süleymanla da görüşmüş, onun gəlişi münasibətilə yazdığı qəsidəsini şəxsən sultanın hüzurunda oxumuşdur. Füzulinin sultanın özü ilə Bağdada gətirdiyi Osmanlı şairlərindən Mehmet Xəyali (ölm. 964/1557) və Taşlıcalı Yəhya bəylə (ölm. 990/1582) də görüşdüyünü və şeir-sənət söhbətləri apardığını xəbər verən qaynaqlar mövcuddur. Tədqiqatçıların fikrincə, Füzulini "Leyli və Məcnun" poemasını yazmağa həvəsləndirən "Rum zərifləri" elə həmin şairlər - Xəyali və Yəhya bəy olmuşlar.

Saraydakı Nişançı Mustafa paşa kimi xeyirxah və sənətsevər adamların məsləhəti ilə Sultan Süleyman Qanuni uzun illər nöqsansız xidmətlərini və qocalığını nəzərə alıb şairə gündə doqquz axça təqaüd verilməsi haqqında barat-fərman imzalamışdır. Ancaq şair bu baratın faydasını görməmiş, yalançı, acgöz və rüşvətxor məmurların "sayəsində" bu təqaüdü ala bilməmişdir. Dahi sənətkarın gördüyü haqsızlıqlardan təsirlənərək öz dostuna yazdığı bu məktub sonralar "Şikayətnamə" adı ilə məşhur olmuşdur.

Cəmiyyətdə tanınan, müəyyən söz və mövqe sahibi olan Füzulinin bütün şiə müsəlmanların ən müqəddəs ziyarətgahları sayılan Həzrət Əli, yaxud İmam Hüseyn türbəsində uzun müddət xidmət etdiyi bəllidir. Fars dilində yazdığı bir qitədə bu barədə belə deyir:

*Ruzi yeyənik ali-rəsulun qapısında,*
*Bir ömrdür olmuş bizə bu ruzi müqərrər.*
*Bu ruzi yolu bizlərə bağlanmamış əsla,*
*Layiq bizik aləmdə belə ruziyə yeksər.*
*Dünyada qənaətlə bizik kim, bəyənildik,*
*Ağgün qocalar, həm ürəyi varlı fəqirlər.*

Bu misralardan şairin "Ətəbati-aliyədə" uzun müddət, özü də qoca yaşlarınadək işlədiyini öyrənirik. Bu müqəddəs yerdə onun öz qulluğu ilə fəxr etməsi də misralardan aydın görünür. Nəcəf türbəsini ziyarətə gəlmiş Hindistan hakimi Nizamülmülkə təqdim etdiyi qəsidəsində isə həyatının böyük bir hissəsini burada xidmətdə keçirdiyini, bu işdə qədd-qamətinin əyildiyini bildirir:

*Ey sərvər, müddətdir ki,*
*övliya şahının məddahıyam,*
*Mənaqibdə əlli il söz sərf etmişəm.*
*Tağ kimi bu ulu dərgahda mənim*
*sabitliyimə bir şahid yoxsa da,*
*"Dal" hərfi kimi ikiqat olmuş qəddim bəsdir.*

Nəcəf türbəsində "əlli il" qulluq edən, hətta belinin "dal hərfi " kimi ikiqat olduğunu deyən şairin çox qoca yaşlarında dünyasını dəyişdiyi məlum olur. Bunu şairin türk divanından gətirdiyimiz aşağıdakı beytlər də təsdiqləyir:

*Könül, yetdi əcəl, zövqi-rüxi-dildar yetməzmi?*
*Ağardı muyi-sər, sevdayi-zülfi-yar yetməzmi?*
*Yetirdi başini gərdun ayağə bari-möhnətdən,*
*Xəyali-həlqeyi-geysuyi-ənbərbar yetməzmi?*

*Ey Füzuli qədimiz qıldı fələk xəm, yəni*
*Vəqtdir çıxmağa dünya qapısından, əyilin.*

Bu misralardan, həqiqətən, şairin saç-saqqalının ağardığı, beli büküldüyü, bədəninin zəifləyib taqətdən düşdüyü, hətta bəzən özünə ölüm arzuladığı açıq-aydın görünür. Bir çox füzulişünas alimin fikrincə, şair qoca yaşlarında tutduğu dini vəzifədən uzaqlaşdırılmış, doğulub boya-başa çatdığı Kərbəla şəhərinə qayıtmış, ömrünün son illərini də orada yaşamışdır.

M.Füzulinin doğum tarixindən fərqli olaraq, vəfat tarixi dəqiqdir. Şairin hicri tarixlə 963-cü ildə Bağdadda geniş yayılan "böyük taun" (vəba) epidemiyası zamanı vəfat etməsi təzkirələrdə "keçdi Füzuli" maddeyi-tarixiylə qeyd olunmuşdur. Bunu şairin dostu və müasiri, dövrünün tanınmış şairi və ziyalısı Əhdi Bağdadidən başlayaraq bir çox təzkirəçi öz əsərlərində göstərmişdir. Bu isə miladi tarixlə məhz 1556-cı ilə düşür.

"Bütün türk şairlərinin babası" (Firidun bəy Köçərli) Məhəmməd Füzuli əlli ildən artıq yorulmadan qələm çalmış, özündən sonra üç dildə kamillik və təravətini bu gün də itirməyən misilsiz əsərlər qoyub getmişdir. Ərəb, fars və türk dillərində yazıb-yaradan, hər üçündə ölməz əsərlər müəllifi olan M.Füzuli kimi nəhəng ədəbi simalar dünya ədəbiyyatında çox azdır. Elmi-fəlsəfi bilgilərlə zəngin əsərləri göstərir ki, o, bütün Yaxın və Orta Şərq ədəbiyyatına, incəsənətinə, ictimai-fəlsəfi fikir tarixinə yaxından bələd olmuşdur. Bəzi lirik əsərlərində az da olsa qarşılaşdığımız avtobioqrafik cizgilərdən bəlli olur ki, o, şair kimi məşhurlaşmamışdan öncə dövrünün bütün elmlərini, eləcə də ərəb, fars, yunan, Misir və yəhudi ədəbi-mədəni və ictimai-fəlsəfi təmayüllərini dərindən öyrənmişdir. Təsadüf deyil ki, öz sağlığından başlayaraq, "molla", "mövlana"- (bizim ağamız), "mütəfəkkir şair", yaxud "alim şair" kimi adlarla tanınmışdır.

Dahi şairimizin ədəbiyyatımız və dilimiz qarşısındakı xidmətlərini vaxtilə gənc C.Cabbarlı görün necə dəqiqliklə göstərmişdir: "Füzuli Azərbaycan ədəbiyyatını fars və ərəb girdablarından dartıb çıxartmış, yenicə yaranmaqda olan ədəbiyyatımızı çiyinlərinə almış, ən yüksək zirvələrə qaldırmış və öz yaradıcılığı ilə on illərlə orada saxlamışdır".

M.Füzuli ədəbiyyat tariximizdə ilk dəfə Azərbaycan türkcəsində "nəzmi-nazik" - "incə, zərif şeir" yaratmaq istədiyini qarşısına əsas məqsəd kimi qoymuş, bu işə bütün bilik və istedadını sərf etmiş və öhdəsindən layiqincə gəlmişdir. Üç dildə Şərq şeirinin bütün janrlarında qələmini sınayan şairimiz hansı mövzuda yazıbsa, həmin mövzuda özündən əvvəl və özündən sonra əsər yazmış əksər Şərq şairlərini kölgədə qoymuşdur. Təxəllüs seçimində olduğu kimi, heç nədə şəriklik və ortaqlığı bəyənməmiş, əl qoyduğu hər bir işdə yalnız birincilik, yeganəlik tərəfdarı olmuşdur.

Doğma türkcəmizdə farsdilli "Leyli və Məcnun"lar səviyyəsində eyniadlı poema, "Şikayətnamə" kimi təzə və orijinal nəsr örnəyi, "Hədisi-ərbəin" - "Qırx hədis" adlı çağdaş tələblərə cavab verən klassik tərcümə əsəri, ölməz şəhidlik abidəsi - "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağçası") kimi məqtəl-dastanı da neçə belə ilklərə imza atmış Füzuli qələminin məhsuludur.

Füzulinin ölməz ədəbi irsi türkcə və farsca "Divan"ları, azərbaycanca, farsca və ərəbcə qəsidələr "Divan"ı, "Bəng və Badə", "Yeddi cam" (fars dilində) alleqorik poemaları, "Leyli və Məcnun" lirik-epik poeması, "Rind və Zahid", "Səhhət və Mərəz" kimi farsca yazılmış alleqorik-fəlsəfi nəsr əsərləri, "Şikayətnamə" də daxil olmaqla olduqca orijinal əsər təsiri bağışlayan məktubları, "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağçası") adlı türkcə nəsr əsəri, "Hədisi-ərbəin" ("Qırx hədis") in tərcüməsi və "Mətləül- etiqad" ("Etiqadın başlanğıcı") kimi ərəbcə yazdığı elmi-fəlsəfi əsərlərindən ibarətdir.

Şairin qəzəl janrının üstünlük təşkil etdiyi türkcə və farsca divanlarında rübai, qitə, tərcibənd, tərkibbənd, mürəbbe, müxəmməs və müsəddəs kimi Şərq şeir şəkillərində yazılmış lirik əsərləri də yer alıb. Hansı formada, hansı janrda, hansı bəhrdə (ölçüdə) yazmağından asılı olmayaraq, irili-xırdalı bütün əsərlərindən Füzuli qəlbi, Füzuli ruhu, Füzuli zəkası, Füzuli məntiqi boy göstərir.

Füzuli əsərləri XVI yüzil Bağdad mühitini əks etdirən poetik güzgü, ümumən orta çağlar müsəlman Şərq dünyasını gözlərimiz qarşısında canlandıran obyektiv ədəbi-bədii salnamədir. Bu əsərlər Məcnunun nalə və fəryadı, Leylinin gizli hıçqırıqları və qəlbinə axan göz yaşları, gənc Rindin ədalətli cəmiyyət və əzablı mənəvi-irfani axtarışları, qoca Zahidin daxili dünyası ilə övlad məhəbbəti arasındakı qəlb çırpıntıları və s. duyğu və düşüncələrdən yoğrulmuşdur. Füzuli yaradıcılığı türk dilinin, türk ruhunun, türk zəkasının vulkan püskürtüsü, Azərbaycan bədii fikrinin ən yüksək zirvəsidir. Füzulinin böyüklüyü bir də ondadır ki, ustadı Nizamidən fərqli olaraq, bədii yaradıcılığında ana dilinə məqsədli şəkildə üstünlük vermiş, mükəmməl divanı ilə yanaşı, "Leyli və Məcnun", "Hədiqətüs-süəda" kimi lirik-epik məzmunlu şah əsərlərini də məhz bu dildə yazmışdır.

Füzuli poeziyası nəinki Azərbaycan, hətta bütün Yaxın və Orta Şərq ədəbiyyatında böyük təsir buraxmış, Türkiyə, İran, özbək, türkmən, tatar şair və yazıçıları uzun müddət onun əsərlərindən bəhrələnmiş, incə qəzəllərinə bənzətmə və nəzirələr yazmışlar. Böyük türk alimi M.F.Köprülünün XX yüzilin əvvəllərində Füzuli poeziyasının təsir gücü və diapazonu barəsində söylədiyi fikirlər bu gün də çox aktualdır: "Yalnız Füzulini yetişdirən Azəri sahəsi deyil, Osmanlı və Cığatay ədəbiyyatları da əsrlərdən bəri onun qüvvətli nüfuzu altında qalmışdır. Daşkənddən Qazana, Krımdan Macarıstan sərhədlərinə, Bağdaddan Qahirəyə, Təbrizdən Buxaraya və İstanbula qədər bütün türk sahəsi əsrlərcə onun tərənnümlərini dinlədi. Azərbaycan, İran və Güney Qafqaz türklərinin fars dilinin müdhiş təhəkkümünə rəğmən, əsrlərcə türklüklərini mühafizə etmələrində, türk aləminin mənəvi vəhdətinin pozulmamasında Füzulinin pək böyük bir təsiri vardır". Füzuli bu gün də bütün türk xalqlarını birləşdirən ortaq dəyər, ortaq mənəvi sərvət xəzinəsidir.

***Zəkulla BAYRAMLI,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## QƏZƏLLƏR

Ey mələksima ki, səndən özgə heyrandır sana,
Həq bilir insan deməz, hər kim ki, insandır, sana.

Verməyən canın sənə bulmaz həyati-cavidan,
Zindeyi-cavid ona derlər ki, qurbandır sana.

Aləmi pərvaneyi-şəmi-cəmalın qıldı eşq,
Cani-aləmsən, fəda hər ləhzə min candır sana.

Aşiqə şövqünlə can vermək ikən müşkül deyil,
Çün Məsihi-vəqtsən, can vermək asandır sana.

Çıxma yarım, gecələr, əğyar tənindən saqın,
Sən məhi-övci-məlahətsən, bu nöqsandır sana.

Padişahım, zülm edib aşiq sana zalim demiş,
Xubrulardan yaman gəlməz, bu böhtandır sana.

Ey Füzuli, xubrulardan təğafüldür yaman,
Gər cəfa həm gəlsə onlardan, bir ehsandır sana!

❖ ❖ ❖

Dəhənin dərdimə dərman dedilər cananın,
Bildilər dərdimi, yoxdur dedilər dərmanın.

Olsa məhbublərin eşqi cəhənnəm səbəbi,
Hurü qilmanı qalır kəndisinə rizvanın.

Keçdi meyxanədən el, məsti-meyi-eşqin olub,
Nə mələksən ki, xərab etdin evin şeytanın?

Vurmazam sihhət üçün mərhəm oxun yarəsinə,
İstərəm çıxmaya zövqi-ələmi-peykanın.

Nə bilir oxumayan müshəfi-hüsnün şərhin,
Yerə göydən nə üçün endiyini Quranın.

Yerdən, ey dil, göyə qavmuşdu sirişkin mələki,
Onda həm qoymayacaqdır oları əfğanın.

Ey Füzuli, olubam ğərqeyi-girdabi-cünun,
Gör nə qəhrin çəkirəm dönə-dönə dövranın.

❖ ❖ ❖

Ey müsəvvir, yar timsalinə surət vermədin,
Zülfü rüx çəkdin, vəli, tabü təravət vermədin.

Eşq sevdasından, ey naseh, məni mən eylədin,
Yox imiş əqlin, mənə yaxşı nəsihət vermədin.

Dün ki, fürsət düşdü xaki-dərgəhindən kam alam,
Noldu, ey göz yaşı, göz açmağa fürsət vermədin.

Göz yumub aləmdən, istərdim açam rüxsarinə,
Canım aldın, göz yumub-açınca möhlət vermədin.

Bumudur rəhmin ki, xalin eylər ikən qəsdi-can,
Çıxdı xəttin kim onu mən edə, rüxsət vermədin.

Vermə hüsn əhlinə, ya rəb, qüdrəti-rəsmi-cəfa,
Çün cəfa çəkməkdə eşq əhlinə taqət vermədin.

Ey Füzuli, öldün, əfğan etmədin, rəhmət sənə!
Rəhm qıldın, xəlqə əfğanınla zəhmət vermədin.

❖ ❖ ❖

Dəhənin şövqünü cansuz güman etməz idim,
Yoxsa birdəm onu mən munisi-can etməz idim.

Vəsfi-xali-ləbini bilsə idim naməqdur,
Arizusunda qara bağrımı qan etməz idim.

Xublar aşiqə meyl etmədiyin bilsə idim,
Özümü eşq ilə rüsvayi-cahan etməz idim.

Düşməsəydi gözümün yaşinə feyzi-nəzərin,
Onu hər sərvin ayağinə rəvan etməz idim.

Salmasaydım dili-viranə imarət tərhin,
Onda gənci-gühəri-eşqi nihan etməz idim.

Sitəmi-təneyi-əğyarə deyildim vaqif,
Yoxsa yarın səri-kuyində məkan etməz idim.

Etməsəydi sitəmi-yar, Füzuli, məni zar,
Bunca fəryad çəkib, ahü fəğan etməz idim.

❖ ❖ ❖

Pənbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim.

Canı canan diləmiş, verməmək olmaz, ey dil!
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.

Daş dələr ahim oxu şəhdi-ləbin şövqindən,
Nola zənbur evinə bənzəsə beytül-həzənim.

Tövqi-zənciri-cünun daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi-tənim.

Eşq sərgəştəsiyəm, seyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadən doludur pirəhənim.

Bülbüli-ğəmzədəyəm, bağü baharım sənsən,
Dəhənü qəddü rüxün, qönçəvü sərvü səmənim.

Edəmən tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!

# "Xalq Bank"ın "Xalq Əmanəti" layihəsinin 24-cü nəşri Cahid Camala həsr olunub

## Azərbaycan, ingilis və rus dillərində hazırlanmış bədii albom rəssamın həyat və yaradıcılığına nəzər salır, irsindən bəhs edir

**Bakıda görkəmli rəssamlar, ziyalılar və digər incəsənət təmsilçilərinin iştirakı ilə yeni nəşrin təqdimatı keçirilib. Gecədə çıxış edənlər kitabın zəngin mənbə olduğunu, Azərbaycan təsviri sənətinin çağdaş dünyada tanınması istiqamətində xüsusi rol oynayacağını qeyd edib, bütövlükdə "Xalq Əmanəti" layihəsinin milli irsin qorunması sahəsində əhəmiyyətindən danışıblar.**






Cahid Camal 15 noyabr 1928-ci ildə Qarabağ torpağında - Ağdam rayonunun Gülablı kəndində anadan olub. Ailələrinin Şuşada da evi vardı. Pasport alarkən valideynlərinin razılığı ilə Cahid özünə babasının adını - Camal soyadını götürür. Belə bir məlumat da var ki, ata tərəfdən Cahidin şəcərəsi Sarıcalı xanlarının xəttilə Qarabağ xanlığının əsasını qoyan Pənahəli xana qədər uzanır.

Cahid Camal şəkil çəkməyə çox erkən yaşlarından həvəs göstərib, getdikcə maraq və istəyi daha da güclənib. Buna baxmayaraq, uşağın rəssam olmaq arzusu valideynləri üçün gözlənilməz olub. Lakin onun anası Gülcahan xanım oğlunun yaradıcı istedadına, qabiliyyətinə inanır, hətta onun uşaqkən çəkdiyi rəsmləri toplayırmış.

1945-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirən Cahid 1946-cı ildə V.İ.Surikov adına Moskva Dövlət Akademik Bədii İnstitutuna daxil olur, təhsilini dekorçu-rəssam ixtisası üzrə dekorativ tətbiqi rəssamlıq sənəti bölməsində davam etdirir. Ali təhsilini başa çatdırandan sonra Cahid Camal Bolşoy Teatra stajçı-rəssam kimi işə götürülür və orada iki il ərzində (1952-1954) peşəkar təcrübə toplayır. Staj müddətini bitirən həmyerlimiz Mayakovskinin adını daşıyan teatrda dekorçu-rəssam kimi işə düzəlir.

1952-ci ildə rəssam Üzeyir bəy Hacıbəylinin Azərbaycan Opera və Balet Teatrında səhnəyə qoyulacaq "Koroğlu" operası üçün dekorasiya eskizləri də çəkir. 1958-1961-ci illərdə isə Moskva yaxınlığındakı Elektrostal şəhərinin Xalq Opera Teatrında "Yevgeni Onegin", "İolanta" tamaşaları üzərində çalışır. 1956-cı ildə Cahid Camal Moskvadakı XTNS-də Azərbaycan pavilyonunun baş rəssamı olaraq tədbirlərə qatılır.

Cahid Camalın bədii üslubu və yaradıcılığının formalaşmasında coğrafiyanın müstəsna rolu var. O, Azərbaycanın yalnız şəhər mədəniyyətini deyil, kənd mühitini də göstərməyi bacarıb. Azərbaycanın dili, tarixi, əfsanə və rəvayətləri, təbiəti, musiqisi, memarlığı, xalq tətbiqi sənəti, xalı və tikmələri rəssamın ilham mənbəyinə çevrilib, əsərlərinin süjet və rəng həlli parlaq boyalara və ornamentlərə sevgisində əks olunub.

Cahid Camal Rusiya Federasiyasının Əməkdar rəssamı, Moskva Rəssamlar İttifaqı, Azərbaycan Rəssamlar İttifaqı, Monqolustan Rəssamlar İttifaqı və Beynəlxalq Təsviri Sənət Fondunun üzvü olub. Rəssamın əsərləri Azərbaycan İncəsənət Muzeyində (Bakı), Q.Zanabazar adına Təsviri İncəsənət Muzeyində, Monqol Milli-Tarixi Muzeyində (Ulan-Bator), Dövlət Rus Muzeyində (Sankt-Peterburq), Dövlət Şərq Muzeyində (Moskva), qalereya və şəxsi kolleksiyalarda saxlanılır. Sərgiləri hələ sağlığında Bakı, Moskva, Dubna, Minsk, Almatı, Kişinyov, Ulan-Bator və Gəncədə təşkil edilib.

Titullarından da göründüyü kimi, rəssamın yaradıcılığı zəngin mədəniyyətə malik üç ölkə - Azərbaycan, Rusiya və Monqolustan ilə eyni dərəcədə bağlıdır. Onun adı bu ölkələrin XX əsrin ikinci yarısı və XXI əsrin birinci onilliyinin təsviri sənət tarixinə yazılıb. Bu vaxtadək Cahid Camalın rənglərin təbiətinin araşdırılmasına həsr edilmiş "Rəngin anatomiyası" və "Geyimdə rəng" əsərləri nəşr olunub.

Cahid Camal kitab qrafikası sahəsində də özünü əla illüstrator-rəssam kimi göstərib. O, Bakıdakı "Azərnəşr" və bir neçə Moskva nəşriyyatı ("Raduqa", "Proqress" və s.) üçün kitablara tərtibat verib. "Koroğlu" xalq dastanı (1956), "Molla Nəsrəddinin lətifələri" (1959), C.İkraminin "Od qızı" (1965), X.Qoytisolonun "Elə həmin sözlər" (1967), Namdağın "Həyəcanlı illər" (1969) kitablarının bədii tərtibatı ona məxsusdur. Özünü plakatçı-rəssam kimi də sınayan gənc sənətkar bir neçə il "Soyuzmultfilm"də multiplikasiyaçı-rəssam kimi də çalışıb.

Cahid Camal yaradıcılığının böyük və ən parlaq hissəsi Monqolustanla bağlıdır və o, bu ölkəyə həsr olunmuş 850 əsər işləyib. Xalqın mədəni irsinin dərinliyini anlamağa can atan rəssam "Monqolların gizli rəvayətləri"ni həvəslə oxuyur, tarixi mənbələri araşdırırdı. Cahid Camal Monqolustanın dağlarına, səhralarına səyahət edir, kəndlərə, ucqar qoyun yataqlarına baş çəkirdi.

"Monqol süitası" silsiləsində rəssam XX əsr Monqolustanının fərqliliyindən söz açmış, həm qədim, ənənəvi, köçəri həyatı, həm də yeni, çoxmərtəbəli binaların inşa edildiyi şəhərləri təsvir etmiş, maldar-aratların monqol çöllərindəki atlarını, dəvələrini müasir texnikaya, sürətli maşınlara dəyişdiyini kətana köçürmüşdür.

Cahid Camalın Monqolustanla tanışlığı 1962-ci ilə təsadüf edir - bu, rəssamın bioqrafiyasında gələcək tədqiqatları üçün bir başlanğıc nöqtəsi idi. Sonralar onun daha bir silsiləsi yarandı - "Monqolustan. Qobi" (1970). Monqolustana aid əsərlərə Moskvada çox maraq göstərirdilər, onlar vaxtaşırı "Komsomolskaya pravda" və "İzvestiya" qəzetlərində, "Oqonyok", "Moskva", "İnostrannaya literatura" və başqa jurnallarda dərc edilirdi.

Cahid Camal 2011-ci il iyunun 17-də Moskvada vəfat etmişdir.

"Xalq Əmanəti" layihəsi "Xalq Bank" tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə Azərbaycan xalqının mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərinin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar - Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələri, uşaq evləri və kitabxanalar, müxtəlif fondlar, dövlət müəssisələri, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə edilir. Bu günədək xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, eləcə də Ələkbər Rzaquliyev, Tağı Tağıyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Şamo Abasov, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Hökumə Bilurinin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üççildliyi, həmçinin dünyaşöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan gəmilər üçün müxtəlif ölçülərdə qasırğa trapların, trapaltı torların və alüminium keçid trapların satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il mayın 13-ü saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***

# Paytaxtda növbəti ağacəkmə aksiyası keçirilib



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən paytaxtın Nərimanov rayonundakı Məmməd Araz və Aşıq Molla Cümə küçələri boyunca olan ərazidə ağacəkmə aksiyası təşkil edilib. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aksiyada meriyanın rəhbərliyi, əməkdaşları və struktur bölmələrin işçiləri, RİİB-in könüllüləri iştirak ediblər.

İştirakçılar tərəfindən aksiyanın keçirildiyi ərazi yararsız tullantılardan təmizlənərək orada Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 1000 ağac əkilib.

Ağacəkmə aksiyası qlobal iqlim dəyişiklikləri və su qıtlığı təhlükəsi ilə əlaqədar ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə növbəti töhfədir. Bakı şəhərində quraqlığa davamlı bitkilərin, yerli iqlimə uyğun ağac və kolların əkilməsi həmçinin paytaxtda ekoloji tarazlığın bərpası, ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Qeyd edək ki, əkilən ağaclara gələcəkdə qulluq göstərilməsi üçün suvarma məsələləri həll olunub, cavabdehlər müəyyənləşdirilib.

Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin il ərzində davam etdirilməsi nəzərdə tutulub.

# Hayastanda etirazlar səngimir

## Revanşistlər Paşinyana qarşı indi də terrorçularla birləşirlər

**Ermənistanda davam edən etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu həm də sosial-iqtisadi vəziyyətin daha da pisləşməsinə səbəb olur. Revanşistlər baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxsalar da, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər.**



Keçmiş hərbi xunta etirazlarına səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərir. Onlar iqtidarın xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər. Azərbaycanla delimitasiya prosesindən narazı qalan erməni sakinlər etiraz aksiyasını davam etdirirlər.

Ötən günlərdə Hayastan parlamentində müxalifət sayılan qruplaşmanın demarkasiyaya dair bəyanat layihəsi rədd edilib. Layhənin müəllifi keçmiş prezident Rober Koçaryanın sponsoru olduğu "Hayastan" fraksiyasıdır. Onlar baş verənləri təhrif etməklə ölkədə qarşıdurma yaratmağa, eyni zamanda hökumət başçısı Nikol Paşinyanı istefaya göndərməyə çalışırlar. Bu dəstənin əsas hədəfi mövcud hakimiyyətə qarşı çıxıb onu devirməkdir. Ona görə də sərhədlə bağlı məsələdən revanş üçün alət olaraq istifadə etməyə çalışırlar.

Hayastanın baş naziri Nikol Paşinyan delimitasiya və demarkasiya ilə bağlı həm müxalifətin, həm də ölkə ictimaiyyətinin marağına səbəb olan suallara yerli İctimai TV-yə müsahibəsində aydınlıq gətirməyə çalışıb. Baş nazir bildirib ki, bir müddət əvvəl "Hayastan" fraksiyasının başçısı tam məxfi sənədlə tanış olmaq üçün müraciət etmişdi: "İndiki anlaşılmazlıqların bəziləri bununla əlaqədar ola bilər". Onun çıxışından belə görünür ki, müxalifət sərhədlərin müəyyənləşməsinə dair sənədlə tanış ola bilmədikləri, yaxud bu məsələdə onlara etibar edilmədiyi üçün gərginlik yaratmağa başlayıblar. Bu həm də Hayastan müxalifətinə hökumətin inanmadığı anlamına gəlir. Rəsmi İrəvan onların məxfi sənəddəki məlumatları başqa tərəfə ötürə biləcəklərindən ehtiyat edib. Ölkə ictimaiyyətini arxayın salmaq üçün Paşinyan bildirib ki, başçılıq etdiyi hökumət delimitasiya prosesi zamanı qarşısına təkcə ayrı-ayrı bölmələri deyil, həm də iki ölkə arasında bütün sərhədin bərpası üçün hüquqi əsas yaradan prinsipin qəbulunu vəzifə olaraq qoyub.

"Hraparak" nəşri yazıb ki, polisin xüsusi əməliyyatları nəticəsində məlum olduğu kimi, iki həftəyə yaxındır bağlı olan dövlətlərarası yolun Günən (Kirants) hissəsi deyil, Günəndən minalanmış ərazilərə gedən yolun girişi açılıb. Nəşrə görə, polis xüsusi əməliyyatların getdiyini bildirərək, kəndin bütün girişlərini bağlayıb: "Məsələ burasındadır ki, Günəndən o biri kəndlərə, Əskipara (Voskepar), Bağanis və başqa kəndlərə gedən yoldan indidən Paşinyanın gətirdiyi yeni sərhəd sütunları və ya onun dediyi kimi, tarixi dirəklər görünür".

ASALA terror təşkilatının keçmiş üzvü, erməni terrorçu Vazgen Sislyan deyib ki, Tavuşda baş verənlər Hayastanın rəhbəri tərəfindən dövlət əleyhinə hərəkətdir. Onun sözlərinə görə, Tavuşda baş verənlər vətənpərvər insan üçün normal ola bilməz: "Bu torpağın hər santimetri üçün qan tökmüşük və bu adam, Nikol Paşinyan ad-soyadlı şəxs gəlib təhvil verir, o, metrlərlə yox, kilometrlərlə təhvil verir. Qısa desəm, Nikol Paşinyan özünü Allah yerinə qoyub, Hayastan onun mülkiyyəti deyil, o, xalqa xidmət etməlidir, xalqı özünə qulluq etdirməməlidir, bu ölkənin sahibi və ağası deyil. Ermənistanda və diasporda olan insanlar, sizə müraciət edirəm, ayağa qalxın, haradasınız, Ermənistan sizin mülkünüzdür, bu mülk üçün mübarizə aparın".

Bütövlükdə bütün bunlar Hayastanın böyük tənəzzül yaşadığını göstərir. Görünən budur ki, sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda İrəvan üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Jurnalistlərin işi təhlükələrdən keçir

**Mayın 3-də BMT Baş Assambleyası tərəfindən 1994-cü ildə təsis olunan Ümumdünya Mətbuat Azadlığı Günü qeyd edilib.**




Bu əlamətdar günlə bağlı çıxış edən BMT-nin baş katibi Antonio Quterreş deyib ki, dünya indiki və gələcək nəsillər üçün ekzistensial təhlükə yaradan görünməmiş ekoloji fəlakətlə üz-üzədir: "İnsanlar bu barədə bilməlidirlər və media işçiləri onların məlumatlandırılmasında və maarifləndirilməsində əsas rol oynamalıdırlar".

Son onilliklərdə qeyri-qanuni mədənçıxarma, meşələrin qırılması, brakonyerlik fəaliyyətini və digər ekoloji problemləri işıqlandıran onlarca jurnalist öldürülüb. Əksər hallarda bu qətllərə görə heç kim məsuliyyətə cəlb edilməyib.

UNESCO-nun məlumatına görə, son 15 ildə ekoloji problemləri işıqlandıran jurnalistlərə və xəbər agentliklərinə 750-yə yaxın hücum olub və bu cür hallar getdikcə artır. Hazırkı qlobal ekoloji böhran kontekstində jurnalistikanın və ifadə azadlığının xüsusi əhəmiyyəti var.

BMT xəbərdarlıq edir ki, iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi və havanın çirklənməsinin üçqat planetar böhranı kontekstində dezinformasiya kampaniyaları elmi tədqiqatların nəticəsini və metodlarını şübhə altına alır.

Elmi sübutların etibarlılığına hücumlar plüralist və məlumatlı ictimai müzakirələr üçün ciddi təhlükə yaradır və iqlim dəyişikliyi ilə bağlı çaşdırıcı və yanlış məlumatlar bəzi hallarda onunla mübarizə aparmaq üçün beynəlxalq səylərə zərbə vurur.

Sərhədsiz Reportyorlar Təşkilatının (RSF) dərc etdiyi illik Ümumdünya Mətbuat Azadlığı İndeksinə əsasən, mətbuat azadlığına siyasi motivli hücumlar, o cümlədən jurnalistlərin həbsi, müstəqil mediaya təzyiqlər və geniş yayılmış dezinformasiya son bir ildə əhəmiyyətli dərəcədə artıb.

Ötən il dünyanın müxtəlif ölkələrində 800 jurnalist saxlanılıb. 2023-cü ilin oktyabr ayından Qəzza zolağında 100-dən çox media nümayəndəsi öldürülüb.

BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Volker Türk bildirib ki, jurnalisti itirməklə biz xarici dünyanın görmə və eşitmə qabiliyyətini, habelə səs hüququ olmayanların səsini itiririk.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Dələduzlar insanları mövcud olmayan çiçək toxumları ilə aldadırlar

**Fırıldaqçılar sadəlövh insanları aldatmaq üçün yeni üsula əl atıblar. Onlar süni intellekt (AI) vasitəsilə pişik üzlərinə bənzəyən çiçəklərin real təsvirini yaradıblar və indi bu "bitkilər"in toxumlarını satırlar.**



AZƏRTAC "Oddity Central"a istinadla xəbər verir ki, "Cats Eye Dazzle" adlı mövcud olmayan çiçəyin toxumları artıq rəsmi onlayn platformalarda alış-veriş üçün əlçatandır.

Bu çiçəklərin ilk şəkilləri sosial şəbəkələrdən birində peyda olub. Görünüşü cəlbedici olan bitkilər həqiqətən də qara gözü və burnu olan pişik üzlərinə bənzəyirlər. Əvvəllər məlum olmayan bu cazibədar çiçəklər dərhal istifadəçilərin ürəklərini fəth ediblər. Foto ilə nəşr 80 min bəyənmə və bir çox şərh toplayıb. İnsanlar toxumları almaq istədiyini bildiriblər və istifadəçilərdən biri onları tezliklə 15-30 dollara almağı təklif edib. Lakin onların bu "pişikləri" yetişdirmək şansları demək olar ki, sıfıra bərabərdir. Dələduzlara inanan və "Cats Eye Dazzle"ın toxumlarını əldə edən insanların sayı hələ ki, məlum deyil, lakin bəziləri deyirlər ki, artıq onları sifariş verib və poçt vasitəsilə alıblar. Bağlamada həqiqətən də pişik üzlərinə bənzər çiçəklər təsvir edilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Elm və təhsil komitəsi Milli Məclisin Sədr müavini Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Milli Məclisin Sədr müavini Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Əlaqə telefonları:

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4266
Sifariş 956

Qiyməti 60 qəpik